

## Sosialyönümlü siyasət: Hədəf vətəndaş rifahıdır!

6

# Unutmasınlar: ŞUŞA BƏYANNAMƏSİ qüvvədədir!

5



Səs
№ 132 (6573) 28 iyul 2022-ci il. Qiymәti 60 qәpik

# NATO-Rusiya: dünən, bu gün və sonra...

12



*İngiltərənin hazırda baş naziri postunu sentyabr ayına qədər idarə edən Boris Consonun NATO-nun Baş Katibliyinə gətiriləcəyi xəbəri aydın səmada şimşək çaxması kimi siyasi arenada effekt yaratdı. Niyə? Məgər onun NATO-nun baş katibi kimi fəaliyyət göstərməsinə əngəl olacaq hər hansı bir özəllik varmı? Əksəriyyət buna "yox" cavabını verəcək. Amma Boris Consonun Ukraynada keçirdiyi xüsusi hərbi kampaniya səbəbindən Rusiyaya münasibəti, aqressiv tonda çıxışlar etməsi, Moskva ilə güc dilində danışmağa üstünlük verməsi onun NATO rəhbəri kimi hansı addımlar atacağını indidən söyləmək olar.*

## Külək milyonlar əsdirir...



8

## Erməni mediası daha nə yazır?



14

## Turizm üçün daha çox hansı bölgələr əlverişlidir?



13

İqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması siyasətinin həyata keçirildiyi Azərbaycanda turizmin inkişafı böyük perspektivlər vəd edir.

## Meymunçiçəyi dünyanı cənginə alır



16

## DƏHŞƏT: Ana pəncərədən yıxılan övladının arxasınca özünü binadan atdı!

16



Abşeronda ana və uşaq bədbəxt hadisə nəticəsində həlak olublar. Oxu.Az-ın məlumatına görə, hadisə Xırdalan şəhərində çoxmərtəbəli yaşayış binalarından birində baş verib.





## İndi çıxılmaz vəziyyətdə qalan Nikol neyləməlidir?

14

...Deyilənlərə görə, Ermənistanı hələ də ittifaq dövləti hesab edən Rusiya Amerika agentlərinin Ermənistandan çıxarılması...

## "Barselona" bu futbolçuya 25 milyon avro qiymət qoydu!

*"Barselona" klubunun rəhbərliyi Memfis Depayla bağlı qərarını verib. SİA Offsideplus.az -a istinadən xəbər verir ki, klub 28 yaşlı hücumçu ilə yollarını ayırmağa hazırdır.*

16

***Son illər Prezident İlham Əliyev tərəfindən bir çox sahələrdə olduğu kimi, icraedici hakimiyyətdə ciddi struktur islahatları sürətlənib. Dövlət başçısı fəaliyyətində ciddi nöqsanlara yol verən, verilən vəzifələrin öhdəsindən gələ bilməyən icra başçılarını çıxarıb, onların yerlərinə isə daha gənc kadrlar təyin edib.***



# Heç kim qanundan üstün ola bilməz!

## *İLHAM ƏLİYEV: "Dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm"*

Ölkə başçısı həm icra başçıları ilə görüşlərdə, həm də müxtəlif müşavirə və konfranslarda icra başçılarına ciddi xəbərdarlıqlar edərək bildirib ki, vəzifəsinin öhdəsindən gələ bilməyən, xalqa xidmət etməyi bacarmayan icra başçılarına güzəşt edilməyəcək. Dövlət başçısı yeni təyin olunan başçıları qəbulu zamanı daim insanlarla təmasda olmağı, onların problemlərinin həll olunmasında laqeyd olmamalısınız. Yəni, bütün məmurlar qarşısında bu bir nömrəli vəzifə olmalıdır.

### “ƏFSUSLAR OLSUN Kİ, BƏZİLƏRİ ƏYRİ YOLLA GEDİBLƏR VƏ BU GÜN BUNUN ACISINI ÇƏKİRLƏR. BU, HƏR BİR DÖVLƏT MƏMURU ÜÇÜN DƏRS OLMALIDIR”

Elə bu günlərdə Masallı, Lerik və Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edərkən söyləyib ki, hansısa dövlət məmuru əgər öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, o, cəzalandırılacaq.Dövlət başçısı son illərdə bütün rayonlarda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində geniş abadlıq-quruculuq işləri görüldüyünü, böyük infrastruktur layihələri icra edildiyini və uzun illər ərzində insanları narahat edən problemlərin böyük hissəsinin aradan qalxdığını bildirib: ”Elektrik enerjisi ilə təchizat, qazlaşdırma, yol infrastrukturu, suvarma, içməli su layihələri, sosial infrastruktur layihələri icra olundu, hər rayonda müasir xəstəxana, tibb ocaqları, bir çox məktəblər inşa edildi. Əlbəttə ki, rayonların sosial-iqtisadi inkişafına bunun çox böyük töhfəsi olmuşdur. Çünki infrastruktur olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Biz elə infrastruktur layihələri icra etdik ki, heç sovet vaxtında bunlar icra edilmirdi. Xüsusilə Lerik rayonu sovet vaxtında qazlaşdırılmamışdı. Mənim göstərişimlə Lerikə qaz çəkildi. Üç rayon dağlıq rayon olduğu üçün əlbəttə ki, qazlaşdırma ilə bağlı problemlər digər rayonlarla müqayisədə daha ciddidir. Ancaq biz imkan daxilində bütün bu işləri görməklə insanların rifah halını yaxşılaşdırmışıq”.

### “AZƏRBAYCANIN ÇOX BÖYÜK POTENSİALI VAR, İMKAN VERƏ BİLMƏRİK Kİ, KİMSƏ BİZİM UĞURLU İNKİŞAFIMIZA KÖLGƏ SALSIN”

”Azərbaycanın çox böyük perspektivləri var, çox böyük potensialı var, xüsusilə İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdən sonra ki, biz bu ədalətsizliyə də son qoyduq, öz gücümüzlə tarixi ədaləti bərpa etdik. Biz müzəffər xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq və ölkəmizdə işlər elə getməlidir ki, heç bir narahatedici problem olmasın, heç bir ədalətsizlik olmasın”,-deyən dövlət başçısı bildirib ki, indi bütün imkanlar var - təbii sərvətlərimiz, coğrafi yerləşməyimiz, beynəlxalq nüfuz, infrastruktur layihələri. İndi hər şey göz qabağındadır. Azərbaycan necə sürətlə inkişaf edir, xüsusilə indiki şəraitdə ki, həm dünyada iqtisadi böhran hökm sürür, həm digər narahatedici məsələlər göz qabağındadır. İndi belə olan halda, hansısa dövlət məmuru əgər öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, o, cəzalandırılacaq: ”İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

### “HEÇ KİM QANUNDAN ÜSTÜN OLA BİLMƏZ”

Dövlət başçısı infrastruktur layihələrin həyat keçirilməsi ilə bağlı iş yerlərinin yaradılması, sahibkarların bölgələrdə bütün quruculuq işlərində fəal iştirak etməsinini vurğulayaraq bildirib ki, hər rayon üzrə kvota var: ”Əfsuslar olsun ki, bəzi rayonlarda bu işlərə cəlb ediləcək insanlar işlərə cəlb olunmamış, əksinə, onlara çatacaq vəsait rayon icra başçıları və digər məsul şəxslər tərəfindən mənimsənilmişdir”. Bilirsiniz ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilmişdir, bəzilərinin hökmü verilmişdir, bəzilərinin işləri məhkəmədədir. Bu, onu göstərir ki, heç kim qanundan üstün ola bilməz”. Dövlət başçısı onu da vurğulayıb ki, bütün icra başçılarını vəzifəyə təyin edərkən onlara tapşırıq və göstərişləri o olub ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar: ”Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır”.

”Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz. Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz”,-deyən dövlət başçısı bildirib ki, elə məsələlər var ki, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır: ”Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz - Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti dövlət qurumlarına ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, demək olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq”.

### “SOSİAL ƏDALƏT, BÜTÖVLÜKDƏ ƏDALƏT PRİNSİPLƏRİ CƏMİYYƏTİN ƏSAS PRİNSİPLƏRİNDƏN BİRİDİR VƏ SAĞLAM CƏMİYYƏTDƏ ƏDALƏT HÖKM SÜRÜR”

Prezident İlham Əliyev yeni təyin olunan icra başçılarına fəaliyyətlərində sosial ədalət prinsipinə əməl etmələrini bir daha tapşırda: ”Sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür. Biz isə sağlam cəmiyyət qururuq və demək olar ki, bu işdə müvəffəqiyyətlər qazanmışıq. Bu gün Azərbaycan cəmiyyəti həmrəylik nümayiş etdirir, Azərbaycan cəmiyyəti ölkədə gedən prosesləri dəstəkləyir, bizim xarici, daxili siyasətimizi dəstəkləyir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndirilib. Bizim siyasətimiz ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Bizim siyasətimiz nəticəsində Azərbaycan hərbi və ondan sonra siyasi yollarla Ermənistanın işğalçılıq siyasətinə son qoydu, əzəli torpaqlarımızı azad etdi, tarixi ədaləti bərpa etdi, milli qüruru bərpa etdi”. Dövlət başçısı çıxışı zamanı ölkəmizdə sahibkarlığın inkişaf dövlətin dəstəyinin daima oluğunu bildirib: ”Sahibkarlıq inkişaf edir, mən bunu dəstəkləyirəm və bunun üçün bir çox addımlar atılır. Ancaq burada da bütün qaydalara riayət edilməlidir, xüsusilə həm inşaatda, həm kənd təsərrüfatı sahəsində, turizm sahəsində. Baxmaq lazımdır, yaradılan obyekt nə dərəcədə bu və ya digər bölgənin memarlıq üslubuna cavab verir, nə dərəcədə müasir normalara cavab verir, bunun inşaat zamanı əmsalı normalara uyğundur, yoxsa yox”.

### “BİZ KİMİNSƏ TAMAHINA GÖRƏ ÖLKƏMİZİN UĞURLU İNKİŞAFINA KÖLGƏ SALA BİLMƏRİK”

Prezident İlham Əliyev onu da bildirib ki, bu gün hakimiyyət təmizlənir və insanlar da bunu görürlər: ”Ona görə siz dövlət məmurları kimi bu hallara çox ciddi fikir verməlisiniz. Bunu mən sizə deyirəm və bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar”. Dövlətimizin başçısı onu da deyib ki, biz kiminsə tamahına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik: ”Ona görə torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır. Həm rəhbərlik edəcəyiniz rayonlarda, həm bütün ölkə üzrə, Abşeron yarımadasında, sahilboyu ərazilərdə, bütün rayonlarda araşdırılmalıdır və qanunsuz əməllərə son qoyulmalıdır”.

### “ŞƏHİD AİLƏLƏRİ DAİM DİQQƏT MƏRKƏZİNDƏDİR”

”Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir”. Bu fikri Prezident İlham Əliyev yeni rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən söyləyib. Şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlər keçirdiyini qeyd edən Azərbaycan Prezidenti bildirib: ”Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. Yəni, dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar”.

### “BİZ QƏLƏBƏNİ ŞƏHİDLƏRİMİZƏ, MÜHARİBƏ ƏLİLLƏRİNƏ, MÜHARİBƏ İŞTİRAKÇILARINA BORCLUYUQ”

”Biz Qələbəni şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq. Əlbəttə, dövlət qətiyyət göstərdi, biz öz iradəmizi ortaya qoyduq, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, ”öldü var, döndü yoxdur” deyərək torpaqlarımızı azad etdik”,-deyən dövlət başçısı qeyd edib ki, bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. ”Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir”.

Beləliklə, dövlət başçımızın dediyi kimi: ”Azərbaycan necə sürətlə inkişaf edir, xüsusilə indiki şəraitdə ki, həm dünyada iqtisadi böhran hökm sürür, həm digər narahatedici məsələlər göz qabağındadır. İndi belə olan halda, hansısa dövlət məmuru əgər öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, o, cəzalandırılacaq. İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın.Bax, mənim sizə göstərişlərim bundan ibarətdir. Mən sizdən fəal iş gözləyirəm, nəticə gözləyirəm. Əminəm ki, siz bu yüksək etimadı dərk edərək, dediyim kimi işləyəcəksiniz!”.

***RƏFİQƏ KAMALQIZI***

Təhlil

# “Azərbaycanın təcrübəsi buna imkan verir”

*Səudiyyə Ərəbistanının nəşri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyindən yazıb*




***Səudiyyə Ərəbistanının "Alyoum" nəşrində "Azərbaycan Qoşulmama Hərəkatına yeni məzmun gətirib" sərlövhəli məqalə dərc olunub.***

Məqalədə deyilir: ”ABŞ-ın ”National Interest” nəşri yazır ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı (QH) üzv ölkələrin problemləri ilə bağlı səmərəli təşəbbüslərlə çıxış edib. 2019-cu ildən bəri Hərəkata üzv olan 120 ölkənin səsi qlobal arenada daha çox eşidilməyə başlayıb. Rəsmi Bakı COVID-19 pandemiyasının başladığı vaxtdan bu qlobal bəlanın iqtisadi və sosial fəsadlarının aradan qaldırılması istiqamətində səylər göstərib. 2002-ci il mayın 4-də QH-nin 45 ölkənin və beynəlxalq təşkilatların iştirakı ilə mühüm sammiti keçirilib. Həmçinin BMT Baş Assambleyası çərçivəsində keçirilən xüsusi sessiyada bəşəriyyəti narahat edən problemlər müzakirəyə çıxarılıb. Bundan başqa, Azərbaycanın sədrliyi dövründə QH-nin strukturunun təkmilləşməsi və daha effektiv beynəlxalq təşkilata çevrilməsi prosesi başlanıb. Hərəkatın Parlament Şəbəkəsi və Gənclər Şəbəkəsi, həmçinin Prezident İlham Əliyevin irəli sürdüyü Nyu-Yorkda ofisin açılmasına dair təşəbbüs üzv ölkələr tərəfindən yüksək qiymətləndirilib.

Məqalədə vurğulanıb ki, QH-nin son vaxtlarda keçirilən tədbirləri bu təşkilatın sülh və təhlükəsizlik məsələlərinin, həmçinin üzv ölkələrin özləri arasında problemlərin həllində mühüm rol oynaya biləcəyini göstərdi. 2020-ci ilin sentyabr-noyabrında ərazi bütövlüyünü təmin etmiş və hazırda sülh və regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edən Azərbaycanın təcrübəsi buna imkan verir.

# Pakistanlı ekspert: ”Prezident İlham Əliyev Azərbaycanda gənclər siyasətinə müstəsna əhəmiyyət verir”

***İyulun 25-də Bakıda Qoşulmama Hərəkatına (QH) üzv ölkələrdən olan Gənclərin Sammiti işə başlayıb. Tədbirdə Qoşulmama Hərəkatına üzv olan 60-dan çox ölkənin gənc nümayəndələri iştirak edirlər. Qoşulmama Hərəkatının Bakı Sammiti dünyanın hər yerindən müxtəlif mədəniyyətlərə və təcrübəyə malik gənclərin bir yerə toplaşdığı nadir platforma oldu. Tədbirdə gənclər müxtəlif qlobal məsələlərlə bağlı maraqlı fikir və ideyaları ilə çıxış etdilər.***



Beləliklə, Gənclər Sammiti Qoşulmama Hərəkatına üzv ölkələrin müxtəlif guşələrindən olan ən yaxşı beyinlərin öz ideyalarını bölüşmək, real dünyanın problemlərinin həlli yollarını tapmaq üçün bir araya gətirib. Sammitin keçirilməsi onu deməyə imkan verir ki, gənclərimiz bəşəriyyətin, qlobal sülh mədəniyyətinin və davamlı inkişafın müdafiəsində dəstəklərini göstərəcəklər.

Bunu AZƏRTAC-a açıqlamasında strateji kommunikasiyalar üzrə pakistanlı ekspert Qayser Nəvvab söyləyib.

Ekspert qeyd edib ki, Qoşulmama Hərəkatının sədri, Prezident İlham Əliyev Azərbaycanda gənclər siyasətinə müstəsna əhəmiyyət verir. Prezident İlham Əliyevin dediyi kimi, Qoşulmama Hərəkatının Gənclər Sammiti üzv ölkələrin gəncləri arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcək.

”Bu gün dünyada gənclərin 90 faizə yaxını Qoşulmama Hərəkatına üzv ölkələrdə yaşayır. Əvvəllər heç vaxt olmadığı kimi bir-birinə bağlı gənclər innovativ həllər təklif etməklə və sosial tərəqqiyə təkan verməklə öz ölkələrinin rifahına da töhfə verirlər. Eyni zamanda, onlar digərləri ilə yanaşı, keyfiyyətli təhsil, səhiyyə və layiqli iş axtarır, müxtəlif problemlərlə üzləşirlər. Bu da onların tam potensiallarının üzə çıxarılmasına mane olur. Gənclərin öz yollarını necə seçmələri və bu çətinlikləri dəf etmələri bəşəriyyətin tərəqqisi üçün çox vacibdir.

Qoşulmama Hərəkatına üzv ölkələrin gəncləri texnologiyadan istifadə etməklə və davamlı tərəqqinin təmin edilməsində qarşılaşdıqları cari çağırışlar, bu çətinliklərlə bağlı innovativ ideyalar, baxışlar, tövsiyələr və perspektivlər təqdim etməklə Hərəkatın prinsiplərinin irəlilədilməsində mühüm rol oynaya bilərlər”, - deyə pakistanlı ekspert diqqətə çatdırıb.

Q.Nəvvab vurğulayıb ki, qlobal problemlərin həlli yollarının tapılmasında gənclərin potensialından istifadə edilməsi çox gözəl təşəbbüsdür. Azərbaycan Prezidenti İlham Əliyev bu təşəbbüsü yüksək səviyyədə dəstəkləyir.

# Anadolu Agentliyi Şuşada keçirilən Beynəlxalq Media Forumunu geniş işıqlandırıb




***Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə iyulun 22-də Milli Mətbuat Günü münasibətilə Şuşada ”Mediada qlobal trendlər, yeni çağırışlar” mövzusunda keçirilən Beynəlxalq Media Forumu Türkiyənin Anadolu Agentliyi tərəfindən geniş işıqlandırılıb.***

AZƏRTAC xəbər verir ki, agentliyin yaydığı məqalələrdə forumun məqsədi və nəticələrindən bəhs olunub.

Diqqətə çatdırılıb ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 İyul - Milli Mətbuat Günü münasibətilə Azərbaycanın media nümayəndələrinə müraciətini oxuyub.

Agentlik dövlətimizin başçısının müraciətindən bu sitatı təqdim edib: ”Media resurslarımız Azərbaycan həqiqətlərini, o cümlədən işğal dövründə ermənilərin tarixi torpaqlarımızda törətdikləri misli görünməmiş vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini yorulmadan davam etdirirlər.

Vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın doğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar.”

Eyni zamanda, vurğulanıb ki, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyevin, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasovun və başqalarının çıxış etdikləri açılış mərasiminə Anadolu Agentliyinin Baş direktorunun müavini Yusuf Özhan da qatılıb.




Agentliyin Beynəlxalq Media Forumu barədə məlumatları Türkiyənin digər informasiya resursları tərəfindən də yayılıb.

# "Ermənilər "dəmir yumruğ"un ağrısını yaddan çıxarmağa başlayıblar"



***Prezident İlham Əliyevin müharibəni 44 gündən sonra dayandırmağa qərar verməsinin əsas səbəbi Ermənistanın kapitulyasiya sənədinə imza atması və Azərbaycan tərəfindən təqdim olunan bütün şərtləri qəbul etdiyini bildirməsi oldu. 2020-ci il noyabrın 10-da Rusiya və Azərbaycan prezidentləri, Ermənistanın baş naziri arasında imzalarla təsdiqlənən bu sənəddə Azərbaycanın milli maraqları tam əks olunur.***

Bu imzalanma mərasimində Rusiya sənəddəki bütün şərtlərin icrasına cavabdeh olacağını bəyan etdi. Ona görə də döyüş əməliyyatları dayandırıldı və Rusiya sülhməramlılarının gəlməsinə razılıq verildi. Bəyanatın doqquz bəndinin icrası göstərilmiş müddətlərdə yerinə yetirilməli idi. Bəyanatı imzalamaqla müharibənin sona çatdığını bəyan edən Azərbaycan digər məsələlərin də masa üzərində həll olunmasına razılaşdı. Çünki dünya praktikasında da bütün müharibələr son məqamda masada imzalanan sənədlərlə yekunlaşır.

Bu fikirləri Azərbaycanın xarici siyasəti ilə bağlı bəzi məqamları AZƏRTAC-a şərh edən Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Deputat qeyd edib ki, Azərbaycan heç vaxt müharibə istəməyib və keçmiş münaqişənin danışıqlar yolu ilə həll olunmasını dəstəkləyib. Amma ölkəmiz lazım gələn anda döyüş əməliyyatlarına başladı. Beynəlxalq ictimaiyyətin 30 ildə dövlətimizin ərazi bütövlüyünün təmin olunması ilə bağlı qərarlar qəbul etməsinə baxmayaraq, heç bir irəliləyiş əldə edə bilmədiyi bir məsələni Azərbaycan Ordusu 44 gündə həll etdi. Bu gün də Azərbaycanın iqtisadi, hərbi gücü və insanların Vətənə bağlılığı 10 noyabr Bəyanatının bütün bəndlərini öz gücü ilə qısa zaman kəsiyində icra etməyə imkan verir. Amma ölkəmiz yenə də məsələlərə səbirlə yanaşır və üçtərəfli bəyanatların imzalanmasına təşəbbüs göstərən tərəflərin səylərini gözləyir. Müharibənin başa çatdığı bir il səkkiz ay ərzində altı üçtərəfli bəyanat imzalanıb. Lakin hansısa aşkar irəliləyişin olduğu haqqında danışmaq çətindir.

"Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın təqdim etdiyi 5 baza prinsipini qəbul etdiyini və sülh müqaviləsinin imzalanması üçün prosedurların icra edilməsinə razı olduğunu bildirsə də, reallıqda prosesi ancaq uzatmaqla məşğuldur. Müşahidələrimiz onu göstərir ki, üçtərəfli görüşlərdən sonra yenə susqunluq yaranır, hətta Ermənistan son vaxtlar "dil açaraq" yenidən statusdan danışır və ATƏT-in Minsk qrupunun iştirakını səsləndirir. 2020-ci il noyabrın 10-da N.Paşinyan başını əyərək kapitulyasiya aktını imzalayanda statusun adını bir daha çəkməyəcəyinə söz vermişdi. İndi isə müharibənin bitdiyi müddət uzandıqca Ermənistanın baş naziri yenidən dil açmağa başlayıb. Bu onu göstərir ki, ermənilər "dəmir yumruğ"un ağrısını yaddan çıxarmağa başlayıblar. Bu müddət ərzində müşahidə etdiyimiz yeganə irəliləyiş Baş nazirlərin birinci müavinlərin rəhbərliyi altında işçi qrupların və XİN rəhbərlərinin görüşləri olub. Azərbaycan sülh müqaviləsinin hazırlanması üçün işçi qrupu yaratmasına baxmayaraq, Ermənistan hələ də bu istiqamətdə hər hansı ciddi addım atmayıb. Sərhədlərin delimitasiyası və demarkasiyası məsələləri hələ də danışıqların predmeti olaraq qalır. 10 noyabrda imzalanmış üçtərəfli Bəyanatın 4, 7 və 9-cu bəndləri hələ də icra olunmayıb və Ermənistandan bu bəndlərin icrası ilə bağlı heç bir hərəkət yoxdur", - deyə A.Badamov əlavə edib.

Bəyanatın 4-cü bəndində Rusiya sülhməramlı kontingentinin erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması ilə paralel şəkildə yerləşdirildiyinin bildirildiyini xatırladan deputat deyib ki, sülhməramlı kontingentin qalma müddəti 5 ildir. Müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini tərəflərdən hər hansı biri bəyan etməzsə, o, avtomatik olaraq növbəti 5 illik müddətə uzadılır. Lakin erməni hərbi birləşmələri bu gün də torpaqlarımızda qalmaqdadır. Rusiya Müdafiə Nazirliyinin yüksək rütbəli şəxsləri iyunun ortalarına qədər erməni hərbçilərinin ölkəmizi tərk edəcəyini bildirsə də, hələlik heç bir dəyişiklik yoxdur.

Diqqəti Prezident İlham Əliyevin cari ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə söylədiyi "Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi bilək. Bizim cavabımız nə olacaq? Onu bəlkə də indi demək yersizdir" fikirlərinə yönəldə Azər Badamov bildirib: "Bu o deməkdir ki, Rusiya sülhməramlıları öhdəsinə götürdüyü vəzifələri icra etmir. Belə olan halda, Azərbaycan yenidən bütün məsuliyyəti öz üzərinə götürə bilər və əgər belə hal baş verərsə, o zaman nəticə Ermənistan üçün daha acınacaqlı olacaq.

Bəyanatın 7-ci bəndində məcburi köçkünlər Dağlıq Qarabağ ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Ofisinin nəzarəti altında geri qayıdacağı qeyd olunub. Müharibənin bitməsindən bir il səkkiz ay keçməsinə baxmayaraq, köçkünlərimizin Qarabağın ermənilər yaşadığı ərazilərə geri qayıtması ilə bağlı hər hansı beynəlxalq təşəbbüs müşahidə etmirik.

Bəyanatın 9-cu maddəsinə əsasən, Zəngəzur dəhlizi və kommunikasiyalar açılmalıdır. Azərbaycan kommunikasiyaların açılması ilə bağlı bütün öhdəlikləri icra edir. Həmçinin ermənilər Laçın dəhlizi vasitəsilə maneəsiz hərəkət edirlər. Dəmir yolunun 70 faizi yenidən tikilmiş, avtomobil magistralları da başa çatmaq üzrədir. Ermənistanın öz üzərinə götürdüyü öhdəlik olan Zəngəzur dəhlizindən keçəcək dəmir və avtomobil yollarının tikintisinin iqtisadi əsaslandırılması belə aparılmayıb. Eyni zamanda, azərbaycanlılar Naxçıvana maneəsiz gedə bilmirlər. Bu, onu göstərir ki, Ermənistan Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələni həll etmək istəmir. Həm də son vaxtlar status məsələsini səsləndirirlər ki, bunun da çox təhlükəli olduğunu anlamırlar. Əgər Ermənistan status məsələsini yenidən ortaya atarsa, biz də Qərbi Zəngəzurun statusunu tələb edəcəyik. Çünki 1920-ci ilin noyabrında Qərbi Zəngəzur Azərbaycandan zorla qoparılaraq ermənilərə verilib. Bu gün müstəqil Azərbaycan dövləti heç bir razılıq olmadan qoparılaraq Ermənistana birləşdirilmiş Qərbi Zəngəzuru geri tələb edə bilər.

O əlavə edib ki, Ermənistan Minsk qrupunun həmsədr ölkələri arasında düşmənçiliyin yaşandığını anlamaq istəmir. Düşünmür ki, onların yenidən bir qrupda təmsilçiliyi mümkün deyil. Yaxşı olardı ki, bu qrupun həmsədr ölkələri öz aralarında münasibətlərini qaydasına qoysunlar. Əgər bunun üçün köməyə ehtiyac yaranarsa, Azərbaycan töhfə verməyə hər zaman hazırdır. Çünki Azərbaycan dövlətinin məqsədi regionda və dünyada sülhün bərqərar olmasına töhfə verməkdir. "Düşünürəm ki, Minsk qrupunun həmsədr ölkələri bu məsələ ilə bağlı Azərbaycana müraciət edəcəklər. Çünki ölkəmiz ərazi baxımından kiçik olmasına baxmayaraq, beynəlxalq səviyyədə sülhün, əmin-amanlığın, tolerantlığın, multikulturalizmin möhkəmlənməsinə, qlobal təhlükələrin aradan qaldırılmasına verdiyi töhfələrinə görə böyük nüfuz və hörmət qazanmış ölkəyə çevrilib", - deyə deputat qeyd edib.




## YAP Təftiş Komissiyasının növbəti iclası keçirilib

İyulun 27-də Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının videokonfrans formatında növbəti iclası keçirilib. Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib. İclasda YAP Mərkəzi Aparatının və yerli təşkilat aparatlarının maliyyə-təsərrüfat fəaliyyətinin təftişinin aparılmasına dair Təlimat və digər cari məsələlər müzakirə olunub.

YAP Təftiş Komissiyasının üzvləri - Nizami Səfərov, Elman Nəsirov, Aydın Hüseynov, Həsən Həsənov, Musa Musayev, Naqif Həmzəyev və Məlahət İbrahimqızı gündəlikdə duran məsələlərə münasibət bildiriblər. Gündəliyə çıxarılan məsələlərin hər biri təsdiq olunub.

## "Dil bir xalqın varolma sübutudur"



"Azərbaycan dili dünyanın ən qədim və zəngin dillərindən biridir. Tarixi inkişaf mərhələlərində çox mürəkkəb və çətin şərtlər içərisində özünəməxsusluğunu qoruyub saxlamağı bacarmaqla həmçinin ünsiyyətdə olduğu qarşılıqlı münasibətlərdə başqa dillərə çoxsaylı sözlər verib, o dillərin də zənginləşməsində iştirak edib". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, bu gün biz böyük və ya kiçik olmasından asılı olmayaraq qonşu xalqların dillərində Azərbaycan dilindən alınma olan yüzlərlə sözün olduğunu bilirik: "Hətta söz mübadiləsi prosesinin tarixi o qədər qədimdir ki, bəzən bizim dildə arxaikləşmiş sözlərimiz qonşu xalqların dilində müasir semantik məna ifadə edən müstəqil leksik vahid kimi çıxış edir. Bizə isə bumeranq söz kimi qayıdır. Bütün bunlar Azərbaycan dilinin qədimliyindən və təsir dairəsinin miqyasından xəbər verir. Dil eyni zamanda təkcə ünsiyyət vasitəsi deyil, həm də daha çox təfəkkür hadisəsi olduğu üçün milli təfəkkürümüz və kimliyimizin formalaşmasında da mühüm rol oynayıb. Eyni zamanda dil milli kimliyin əsas göstəricisidir, bir xalqın varolma sübutudur. Ona görə hər bir xalqı xalq edən də, onun milli dövlətini qurmaq potensialını reallığa çevirən də dildir. Çünki dil mükəmməl fuksional alət kimi kütləvi ünsiyyəti, təşkilatlanmanı və səfərbərolmanı təyin edir. Ona görə də dövlətimiz dilimizin inkişafına və qorunmasına daima xüsusi diqqət və qayğı ilə yanaşır.

Hələ sovet dövründə Azərbaycan dilinin inkişaf etməsi və hüquqi statusunun müəyyənləşdirilməsi böyük dövlət xadimi Heydər Əliyevin diqqət mərkəzində olmuş, nəhayət onun təşəbbüsü ilə 27 aprel 1978-ci il tarixində Azərbaycan SSR Konstitusiyasına "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsi əlavə olunmuşdur. Bu dilimizin inkişafı tarixində tamamilə yeni bir mərhələ açmışdır. Müstəqillik illərində isə 1995-ci ildə ilk milli Konstitusiyamız qəbul edilərkən ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Beləliklə Azərbaycan dili özünün çoxəsrlik inkişaf mərhələsində tamamilə fərqli bir status qazanaraq müstəqil dövlətin dövlət dilinə çevrilmişdir. Hazırda milli dilə müasir internet resursları və qlobal dillərin çoxsaylı müxtəlif səviyyəli təzyiqlərinə baxmayaraq Azərbaycan dili inkişaf edir. Prezident İlham Əliyevin 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir. Ancaq dil kütləvi ünsiyyət vasitəsi olduğu üçün onun qorunması və inkişafı da kütləvi səylər tələb edir. Ona görə də hər bir Azərbaycan vətəndaşı dilimizin mükəmməl daşıyıcısı olmaqla həm də onun fuksionallığını təmin etməlidir.

# Unutmasınlar: ŞUŞA BƏYANNAMƏSİ qüvvədədir!

**_Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bir müddət əvvəl Polşada olarkən belə bir iddia ilə çıxış etmişdi. SİTAT: "Azərbaycanın maksimalist ritorikası regional sabitliyin və sülhün əldə olunmasına mane olur". Və maraqlısı da budur ki, erməni XİN-nin rəhbəri Azərbaycanın "maksimalizmi" barədə danışarkən bunu hansı istiqamətdə gördüyünü deməyib._**



Yekun rəyini ortaya qoyan bilavasitə RƏSMİ BAKIDIR və SON SÖZ DƏ BAKININDIR!

Daha dəqiq desək, Mirzoyan üçün əsas budur ki, hər nə olursa-olsun, Ermənistan rəhbərliyini "mələk" qismində təqdim edib Azərbaycan rəhbərliyini "aqressiyada" ittiham etməlidir, yəni bu, faktiki olaraq 44 günlük müharibədən sonra rəsmi İrəvanın tutduğu və bu gün də davam etdirdiyi, ancaq heç nə əldə edə bilmədiyi qeyri-ciddi davranışıdır. Əslində isə fakt budur ki, hazırkı dövrə qədər əldə olunmuş razılaşma və bəyanatların hər birində irəli sürülən şərtləri məhz rəsmi Bakı - özü də maksimal təmkini və iradəsi ilə icra edir, Ermənistandan fərqli olaraq. Amma buna rəğmən, səbrinin tükənəcəyi siqnallarını da verir, bunun isə məsuliyyəti məhz Ermənistanın maksimal qeyri-ciddiliyi, inadkarlığı üzərindədir.





### Əgər bu gün Ermənistan rəsmiləri hərəsinin əlində yekə qovluqlarla Avropa ölkələrini, ABŞ-ı gəzərək "pis türklərin artsaxda erməni irsini dağıtmaları" haqqında lələdöyənlik edirlərsə...

Mirzoyanın sözlərindən belə çıxır ki, sən demə biz, yəni Azərbaycan hər şeyə dərhal son qoymalı, üzr istəməli və əlavə olaraq onların "şərtlərinə" əməl etməliymişik (???!!!-R.R.). Əbəttə ki, biz əsla belə şeylərə razı olmarıq və əgər buna görə Ermənistan siyasi böhranla üzləşəcəksə, rəsmi İrəvan özü-öz problemlərini həll etsin və ilk növbədə, qonşuları ilə normal münasibət qurmağın, regional sülhün yaranmasına töhfə verməyin yollarını axtarıb-arasın - nəhayət, sülh sazişinin imzalanması prosesini ləngitməsin!

Əgər bu gün Ermənistan rəsmiləri hərəsinin əlində yekə qovluqlarla Avropa ölkələrini, ABŞ-ı gəzərək "pis türklərin artsaxda erməni irsini dağıtmaları" haqqında lələdöyənlik edirlərsə, əslində bu da Azərbaycanda ironik gülüşlər yaradır. 30 il (!!!) boyunca ermənilər Qarabağda tarixi Azərbaycan irsini, mədəniyyətini, dini abidələrini və s. dağıdıb-məhv ediblər və bunun da cavabını verməli olacaqlar. O cümlədən, Qarabağda "qədim erməni irsi" olmadığına görə, onlar özlərindən minlərlə sərsəm "iddialar" səsləndirə bilərlər, onların heç biri istədikləri nəticələri verməyəcək, buna əmin olsunlar.

### Erməni tərəfi bu güzəştlərin hər birindən yararlanaraq gündə acqarına 10 min dəfə Azərbaycan dövlətinə çox sağ ol deməlidir

Reallıqda isə məsələ belədir: Bakı İrəvana kifayət qədər güzəştlər edib və bundan sonra hansısa güzəştlərə getmək, sadəcə doğru olmazdı, hətta belə desək, ağ olardı. Belə ki, hər şeyin çərçivəsi var və bundan o yanası yoxdur. Erməni tərəfi bu güzəştlərin hər birindən yararlanaraq gündə acqarına 10 min dəfə Azərbaycan dövlətinə çox sağ ol deməlidir. Şərtimiz isə təxminən belə bir mənzərə fonundadır - siz özünüzü yaxşı aparırsınız və bunun qarşılığında biz sizə heç nə etmirik. Nə Haropla, nə Bayraktarlar havaya qaldırılmır, nə xüsusi təyinatlılar yenidən yumruqlarını havaya qaldırıb başınıza endirmir, nə də Yerablur məzarlığında yeni qəbirlər qazılmır. Həqiqət budur, kapitulyasiyaya uğramış bir ölkənin rəhbərliyi qalib qarşısında çox da sağınasoluna bel bağlamamalıdır, əks halda...

Yaxşı, əgər Qarabağdakı separatçıların qondarma parlament rəhbəri "artsaxın müstəqilliyinin 31-ci ildönümü" ilə bağlı xarici ölkələrdəki ağalarını, Ermənistan parlamentinin nümayəndələrini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərə "bayram" etmək üçün dəvət edirsə, üstəlik bunun müqabilində yenə də "artsaxın" saxta və burnundan o tərəfi görə bilməyən "dövlət naziri" Artak Beqlaryan "Dağlıq Qarabağ münaqişəsi sülh yolu və danışıqlar masası arxasında öz həllini tapmalıdır" tipli axmaq və murdar qoxu verən fikirlərini səsləndirirsə rəsmi Bakı hansı addımı atmalıdır?! Yaxud, rəsmi Bakı hansı addımı (artıq bu addım yetişib-R.R.) atacaq da?!

### ANTİTERROR!

Deməli, Azərbaycanın Prezidenti İlham Əliyev bəyan edir ki, "Dağlıq Qarabağ" ifadəsi mövcud deyil, Qarabağ münaqişəsi isə başa çatıb və o da artıq mövcud deyil, bunlar hələ də nala-mıxa döyəcləyib baş ağrıdırlarsa, Bakının buna qarşı başqa hansı addımlar atması ehtimalları qalır? ANTİTERROR! Məhz qısa müddətli antiterror əməliyyatı ilə bütün ortada qalan kiçik problemləri yerindəcə həll etmək olar. Ona görə də ərazi iddialarından əl çəkməklə, sərsəm "erməni irsi" ətrafında hay-haray qaldırmaq yerinə sülh razılaşmasını imzalamaqla bütün bunlardan yan keçmək mümkündür.

Sonda isə daha bir qeydi etmək vacibdir. Bəli, bu gün müxtəlif qütblərdə siyasət yürüdən dairələr və ya şəxslər vasitəçilik edə bilərlər, amma həmin vasitəçiliklər yalnız və yalnız vasitəçilik missiyasından o yana keçmir və qərarları da nə Vaşinqton, nə Brüssel, nə də Moskva vermir, qərarları verən və yekun rəyini ortaya qoyan da bilavasitə RƏSMİ BAKIDIR -SON SÖZ BAKININDIR. İrəvan isə artıq il yarımdan çox müddətdir ki, ona verilən sonuncu şansından elə Ararat Mirzoyanın özünün dediyi kimi maksimal qaydada istifadə etməlidir, nə qədər gec deyilsə, əlbəttə ki...

### Bax, bunu isə heç vaxt, qətiyyən unutmasınlar!

Yeri gəlmişkən, Prezident İlham Əliyev keçirdiyi sonuncu müşavirəsində mövzu ilə bağlı fikirlərini açıqlayarkən bütün bu kimi faktorlara dərindən toxundu, hətta son vaxtlar erməni tərəfinin qoltuğuna qarpız verən Rusiya sülhməramlılarının da tərəfinə barmaq silkələdi ki, ağıllı olsunlar, üzərlərinə götürdükləri missiyalarını dürüst şəkildə icra etsinlər. Daha zirehli texnikalarının gizli yerlərində separatçılara silahlar daşımasınlar, terrorçuların Qarabağda istehkam və səngər qazmalarına mane olsunlar, qanunları pozanları cəzaya cəlb etsinlər və s.

Və ən əsası, heç bir tərəf unutmamalıdır ki, Azərbaycanın təmsil olunduğu ŞUŞA BƏYANNAMƏSİ qüvvədədir və bu Bəyannamənin altında iki regional siyasi nəhənglərin imzaları dayanır. Bax, bunu isə heç vaxt, qətiyyən unutmasınlar!

***Rövşən RƏSULOV***

# Sosialyönümlü siyasət: Hədəf vətəndaş rifahıdır!

***Azərbaycanda sosialyönümlü siyasət əhalinin sosial rifahının və həyat şəraitinin yaxşılaşdırılması üçün stimul rolunu oynayır. Xüsusilə son bir neçə ay ərzində əhalinin sosial müdafiəsi üçün atılan mühüm addımlar dediklərimizi tamamilə təsdiq edir. Ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrasını sürətləndirir.***



Reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib. Bu iqtisadi inkişaf hər şeydən əvvəl ölkəmizdə mütərəqqi sosial siyasətin həyata keçirilməsi, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Sosial siyasətin uğurla həyata keçirilməsinin məntiqi nəticəsi olaraq, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib. O cümlədən, şəhid ailələrinin, Qarabağ əlillərinin, ümumilikdə, sağlamlığı məhdud olan insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri addımlar atılır.

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə dövlət başçısı tərəfindən həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi qazilərin, şəhid ailələrinin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Prezident İlham Əliyevin göstərişi ilə postmüharibə dövründə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib. Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub.

Statistik rəqəmlərə istinadən qeyd edək ki, Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib.

Bu günlərdə Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışı görülən işlərin davamıdır. Doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksi 2.76 hektar ərazidə inşa olunub. Şəhid ailələri və müharibə əlillərinə 200 mənzil və 50 avtomobilin təqdim olunmasının məhz müqəddəs Ramazan bayramında gerçəkləşməsi isə təsadüfi deyildi. Bu humanizm, sosial qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqət və islam dəyərlərinə sadiqlik Azərbaycan Prezidentinin idarəçilik konsepsiyasının mühüm tərkib hissələrindən olduğunu bir daha təsdiqləmiş oldu.

Cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bütün şəhidlərimizin ailələrinin məişət problemlərinin həlli bizim borcumuzdur: "Prezident kimi mənim və dövlətimizin borcudur. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib. Bu, yenə də bizim borcumuzdur".

Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin bəzilərinin evlərlə təmin edilmədiyini diqqətə çatdıran Cənab Prezident 12 min 500 mənzilin verildiyini diqqətə çəkib: "Ancaq hələ də növbədə duranlar var. Ona görə mən dedim ki, birincisi, məcburi köçkünlər üçün biz artıq Qarabağda, Zəngəzurda evlər tikməyə başlamışıq. Onlar orada yaşamalıdırlar. İkincisi, tezliklə şəhid ailələri, yaralı olan hərbçilərimizin problemlərinin həlli üçün bu gözəl evləri biz şəhid ailələrinə təqdim edək. Keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək".

Azərbaycan dövlətinin bu diqqət və qayğısı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Avropa Birliyi ən yüksək səviyyədə Azərbaycana maraq göstərir"



"Azərbaycan ilə Avropa ölkələri arasındakı əməkdaşlıq 30 ildir ki, davam edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib. Onun sözlərinə görə, bu əməkdaşlığın aktiv bazası Azərbaycanın neft strategiyası həyata keçdikdən sonra daha geniş sahədə yayılmağa başladı: "Demək olar ki, Avropa Birliyi Azərbaycanın ən etibarlı enerji idxalatçılarındandır. Düşünürəm ki, bu, həm Azərbaycana, həm də Avropa İttifaqının özünə də vacibdir. Eyni zamanda Azərbaycan Avropanın ən etibarlı enerji tədarükçülərindən biri hesab edilir.

Son dövrlər qərb təşkilatlarının Azərbaycana marağının artması məlum məsələdir. Bildiyimiz kimi Prezident İlham Əliyevin Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen ilə birlikdə imzaladığı sənəd özlüyündə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə keçməsi deməkdir. Düşünürəm ki, keçirilən görüşlər onu göstərir ki, Avropa Birliyi ən yüksək səviyyədə Azərbaycana maraq göstərir".

***Arzu Qurbanlı***

## "Ermənistanın Azərbaycan ilə müharibə aparacaq heç bir potensialı yoxdur"

"Ermənistan tərəfi bütövlükdə Azərbaycan ilə münasibətləri normallaşdırılması istiqamətində çevik addımları atmayaraq prosesdə öz təxribatçı, "iddialar"ını gerçəkləşməyini arzulayırlar". Bu sözləri SİA-ya açıqlamasında Tural İsmayılov deyib.

Onun sözlərinə görə, Ermənistan hakimiyyətinin sülh və barışıq ilə bağlı ikibaşlı mövqeyi, qeyri-səmimi yanaşması təkcə Azərbaycan-Türkiyə deyil, eyni zamanda Azərbaycan-Ermənistan, Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılma prosesini yaxından izləyən, vasitəçi kimi çıxış edən Rusiyaya Avropa İttifaqına da məlum məsələdir: "Bu baxımdan hesab edirəm ki, Ermənistanın bu cür addımlar atmağı təkcə özü ilə bağlı faktor deyil, burada həmçinin üçüncü qüvvələrin də rolu var. Hazırda Ermənistan tərəfi özlərinin əleyhinə çevrilmiş hər bir məqamı manipulyasiya etməklə məşğuldur. Ermənistanın bundan sonra Azərbaycan ilə müharibə aparacaq heç bir potensialı və ehtiyatı yoxdur. Hətta ən uzaq gələcəkdə belə hər hansı bir formada Ermənistanın həm Azərbaycan-Türkiyə tandeminə, həm də ayrı-ayrılıqda Azərbaycan və Türkiyə faktoruna müqavimət göstərmək ehtimalı yoxdur. Burada əsas məsələ Ermənistanın sülh danışıqları prosesinin zədələməsi faktorudur. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasından sonra regionda təsirlərinin zəifləyəcəyini bilən beynəlxalq güclər Ermənistandan bu məsələdə istifadə edərək regionda vəziyyəti gərginləşdirməyə və Cənubi Qafqazda mövcudluğunu davam etdirməyə çalışırlar".



***Arzu Qurbanlı***

# Fotolarının yaddaşında yaşanan tariximiz

## Dövlət başçısının Sərəncamı ilə Reza Deqati "Dostluq" ordeni ilə təltif edilib

***Reza Deqati... Bu ad hər bir azərbaycanlıya yaxış tanışdır və hər kəsin qəlbində ona böyük sevgi, ehtiram var. Azərbaycanın ən çətin anlarında onun ictimai-siyasi prosesləri diqqətlə izləyən və dünya ölkələrində təbliğində, beynəlxalq ictimaiyyətə çatdırılmasında yorulmadan çalışan ziyalının fotoqraf kimi fəaliyyət göstərdiyi 55 il ərzində dünyanın müxtəlif ölkələrində 460-dan çox sərgisi keçirilib. Əqidə və məsləki bəlli olan bir insan xoş niyyəti ilə Azərbaycanın yanında olaraq, ölümün gözünə dik baxaraq sərhədlər keçib və Azərbaycanın həqiqətlərinə biganə qalmayıb. Məhz onun nəticəsidir ki, Reza Deqati Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Dostluq" ordeni ilə təltif edilib. Bu, onun bu günə qədər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə verilən böyük dəyərdir, qiymətdir.***





### KİÇİK ARAYIŞ

Rza Diqqəti 1952-ci il 26 iyul tarixində Təbrizdə azərbaycanlı ailəsində dünyaya gəlib. İlk şəklini isə 14 yaşında çəkən Rza bu fotosunu məktəbdə fəaliyyət göstərən "Pərvaz" adlı jurnalda yayımlayıb. Beləliklə, onun bu sahədə ilk uğurlu addımlarının təməli qoyulur. Daha sonra Tehran Dövlət Universitetində Memarlıq üzrə təhsilini davam etdirən Rza burada fotolar çəkib yaymağa davam edir. Öz fəaliyyətinə görə 22 yaşında şah rejimi tərəfindən 3 il müddətində həbs olunaraq 5 ay işgəncələrə məruz qalır. Tərcümeyi-halında qeyd olunur ki, həbsdən çıxdıqdan sonra memarlıq təhsilini yarımçıq qoyaraq fotoqraflığa başlayır. Fəaliyyətə İran İnqilabını çəkməklə başlayır. Tezliklə çəkdikləri şəkillər dünyanın bir yerində yayımlanır. O, "Newsweek" jurnalı ilə müqavilə imzalayır. 1979-cu ilin 4 noyabr tarixində iranlı tələbələrin Tehranda ABŞ səfirliyində 66 amerikalı daxil olmaqla 99 nəfəri girov götürdükləri vaxt səfirlikdə olan tək jurnalist o olur. İnqilaba qədər olan hadisələri, eləcə də inqilab və inqilabdan sonra baş verən hadisələri qeyd alır. Lakin sonradan 1981-ci ildə özünə qarşı artan təzyiqlərdən sonra ölkəni tərk edərək Fransaya gedib. Maraqlı və ziddiyyətli bir ömür yaşayır. Ömrünün qaynar illərində 1991-ci ildən etibarən Milli Coğrafiya Cəmiyyəti il əməkdaşlığa başlayır və cəmiyyətin bir çox layihələrini həyata keçirib. Onun çəkdiyi şəkillər 25 jurnalın üz qabığı olub. Belə bir şöhrətə sahib olan fotoqraf 1992-ci ildə öz həyat yoldaşı yazıçı Reyçel Diqqəti ilə birlikdə Parisdə "Webistan Foto" Agentliyinin əsasını qoyurlar.

Bir-birinin ardınca karyerasına yazılan fəaliyyəti onu şöhrətləndirir.

1990-cı ildə o fotojurnalist karyerasına ara verərək Əfqanıstanda Birləşmiş Millətlər Təşkilatının məsləhətçisi olaraq ölkənin şimal əyalətlərində yenidənqurma və yardım proqramında 9 ay fəaliyyət göstərir. 1996-cı ildə o, YUNİSEF və Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq edərək Ruandada qaçqın şəhərciklərində şəkillər çəkməyə başlayır. Və bu şəkillər sonradan qarışıqlıq zamanı valideynlərini itirmiş övladlara öz valideynlərini və ya övladlarını itirmiş valideynlərə öz övladlarını tapmağa kömək olmuşdur. Konqo Demokratik Respublikasından olan 12 min uşağın şəklini çəkərək onları qaçqın şəhərciklərində nümayiş etdirmişdir.

### AZƏRBAYCANA İLK SƏFƏRİ

Bəs Azərbaycana yollar necə açılıb? Tanınmış fotojurnalist Azərbaycana ilk dəfə 1987-ci ildə səfər edib. 1997-ci ildə isə bir neçə ay Azərbaycanda yaşayıb, ölkəni gəzərək sadə insanların gündəlik həyatını, məişətini, adət-ənənələrini fotolarda əbədiləşdirib. Azərbaycanın qanlı-qadalı günlərində ölkəmizin həqiqətlərini fotosunun yaddaşına köçürüb. Reza Deqati 20 yanvar hadisələrini o cümlədən də Xocalı soyqırımının şahidlərini, eləcə də şəhidləri çəkməyə müvəffəq olub. Bundan başqa müharibə gedən digər bölgələrdə Şuşa, Zəngilan, Cəbrayılda baş verən hadisələri də fotoaparatın yaddaşına köçürüb. Müharibədən sonra da məcburi köçkünlərlə görüşüb, onların da şəkillərini çəkib. Bundan sonra isə Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün bir çox avropa ölkələrində sərgilər təşkil edib, dəfələrlə ermənilərin hücumuna məruz qalıb. Qarabağda çəkdiyi fotoları Parisdə sərgiləyən Rza Diqqətiyə qarşı Fransa mətbuatında onlarla yazı dərc olunub, özü hədələnib, sərgisi isə erməni hücumuna məruz qalıb. Rza Diqqəti isə öz növbəsində cırılan şəkilləri yeniləri ilə əvəz etməyib, ermənilərin növbəti əməlini necə varsa elə də nümayiş etdirib. Özü bu haqda yazırdı: "Heç bir vəclə fotoları sərgidən yığışdıra bilməyən ermənilər bu dəfə sərgiyə gəlib həmin fotonu cırırlar. Təşkilatçılar isə mənə bildirdilər ki, şəkillər cırılıb, onları dəyişdirmək lazımdır. Mən söylədim ki, dəyişdirmək lazım deyil, necə var, eləcə də qalsın. Qoy onların hərəkətini hamı görsün, hamı bilsin."

### FOTOSUNUN YADDAŞINA KÖÇƏN TARİXİ ANLAR

Daim narahat dünyaya sahib olan fotoqraf dünyanın hansı nöqtəsində bir gərginlik yaşanırsa, onu imkanı daxilində fotosunun yaddaşına köçürür.

Mənbələrdə göstərilir ki, o, 1990-cı ildə o fotojurnalist karyerasına ara verərək Əfqanıstanda Birləşmiş Millətlər Təşkilatının məsləhətçisi olaraq ölkənin şimal əyalətlərində yenidənqurma və yardım proqramında 9 ay fəaliyyət göstərir. 1996-cı ildə o, YUNİSEF və Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq edərək Ruandada qaçqın şəhərciklərində şəkillər çəkməyə başlayır. Və bu şəkillər sonradan qarışıqlıq zamanı valideynlərini itirmiş övladlara öz valideynlərini və ya övladlarını itirmiş valideynlərə öz övladlarını tapmağa kömək olmuşdur. Konqo Demokratik Respublikasından olan 12 min uşağın şəklini çəkərək onları qaçqın şəhərciklərində nümayiş etdirmişdir. 1998-ci ildə Azərbaycanda qaçqın uşaqlar üçün məktəbin tikintisində iştirak etmişdir. 2001-ci ildə Əfqanıstandakı uşaq və qadınların təhsili məsələləri ilə məşğul olan AINA xeyriyyəçilik assosiasiyasının əsasını qoymuşdur. Bu assosiasiyanın tələbələrindən biri Məsud Hüseyni 2012-ci ildə Pulitser mükafatına layiq görülmüşdür. 2009-cu ildə assosiasiya tərəfindən təlimdə iştirak etmiş əfqanların sayı 1000 nəfəri keçdikdən sonra assosiasiya tamamilə azad olmuşdur. Hazırda bu məktəblərdə təlim görən əfqanlar Banqladeş, Çin, Fransa və digər ölkələrdə fotoqraf olaraq fəaliyyət göstərirlər. 2014-cü ildə "Alovun zərifliyi" və "Qara Yanvar", Qarabağ və Xocalı soyqırımı hadisələrinə həsr edilmiş "Körpələrin döyülməsi" kitablarını yazmışdı. "Alovun zərifliyi" kitabında müəllifin Azərbaycana səfərləri zamanı çəkdiyi fotolar, Azərbaycanın rayonları, ucqar kəndləri, sadə insanların həyat tərzi, adət-ənənələri və digər məqamlar əksini tapıb. Müəllif, eyni zamanda milli rəqslər, konsert, tamaşa, sərgi və digər müxtəlif tədbirlərdən çəkdiyi fotolarla Azərbaycan mədəniyyətinin mənzərəsini yaradıb. "Günahsızların qırğını" kitabında isə fotojurnalistin 1992-ci ildə Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı zamanı lentə aldığı görüntülər toplanıb. Həmçinin Parisdə Petit Palais-də "Alovun zərifliyi" adlı sərgi keçirmişdir. 2013-cü ildə isə Parisdə Rza Deqatinin "Azərbaycan. Tolerantlıq məkanı" sərgisi keçirilib. Həmin sərgi sonralar Moskvada, İsrailin müxtəlif şəhərlərində, eləcə də BMT-nin mənzil qərargahında, Avropa Parlamentində nümayiş olunub.

### ÇOX TƏSİREDİCİ ANI QARABAĞDA, XOCALIDAN QAÇAN YAŞLI QADININ TİMSALINDA YAŞAYIR

Xatirələrində belə yazır: "Bu günə qədər dünyanın 115 ölkəsində şəkil çəkmişəm. 1 milyondan çox fotonun müəllifiyəm. Onların hamısı mənə əzizdir. Necə demək olar ki, üç uşağım var, ancaq birini çox istəyirəm. Hamısını istəyərək, sevərək çəkmişəm. Bu fotoların hansına baxsan onun ayrı bir hekayəsi, nağılı var. Amma bütün bunlara baxmayaraq, çox təsiredici bir anı Qarabağda, Xocalıdan qaçan yaşlı qadının timsalında yaşadım. Faciədən 3 gün sonra oğlu və həyat yoldaşının cəsədini tapan, əllərini yuxarı qaldırıb ah-nalə edən qadının fotosu... Bütün dünya da bu əsərə məyus olmuşdu. Qadın qaça-qaça əllərini açaraq gəlir, amma görür ki, əzizləri həlak olub. O rəsmi Fransa, Amerika daxil olmaqla dünyanın bir çox ölkələrində sərgilədim, kitablarıma daxil etdim. Hətta Avropada buna görə ermənilərlə münaqişələrim də olub."

Dünyaşöhrətli fotoqraf Reza Deqati Şuşa haqqında film də çəkib. O, özünün instaqram səhifəsində film barədə paylaşım edib. Paylaşımda şəhid Xudayar Yusifzadənin ifa etdiyi "Vətən yaxşıdır" mahnısı fonunda Şuşanın havadan görüntüləri yer alıb. Reza Deqati paylaşımında Xudayar Yusifzadə haqqında da məlumat verir. Bildirir ki, Xudayar Yusifzadə Bərdədəki Bülbül adına incəsənət məktəbinin parlaq yetirməsi olub. O, Qarabağın işğaldan azad olunması uğrunda müharibə zamanı bir çox cəbhələrdə döyüşüb. Vətənpərvərlik haqqında mahnını ifa etdiyi bu videonu ölümündən iki gün əvvəl anasına göndərib. Onun arzusu opera müğənnisi olmaq idi. "İndi onun bu ifası Azərbaycanda hər bir evdə məşhurdur. Ona görə də mən bu mahnını filmimin musiqisi olaraq seçdim", - deyə fotoqraf qeyd edib. Azərbaycan həqiqətlərinin carçısı olan Reza Deqatinin fotosunun yaddaşında böyük həqiqətlər yaşanır. Azərbaycan torpaqlarının işğalı dövründə, eləcə də Vətən müharibəsində 44 günlük müharibədə Azərbaycanın haqq səsini dünyaya çatdırması onun xarakterindən, bu torpağa, insanlığa olan məhəbbətindən irəli gəlir.

***Zümrüd BAYRAMOVA***

## "Azərbaycan tarixi Zəfərindən sonra media resurslarından daha səmərəli istifadə etməkdədir"



Azərbaycan mətbuatının 147 illiyi münasibətilə Şuşada ilk Beynəlxalq Media Forumunun keçirilməsi olduqca əhəmiyyətli tarixi hadisə idi. Nəzərə almaq lazımdır ki, postmüharibə mərhələsinin reallıqlarının dünya ictimaiyyətinin diqqətinə davamlı olaraq çatdırılması mühüm əhəmiyyət daşıyır. Belə ki, Vətən müharibəsində tarixi Qələbə qazanaraq özünün güc mövqeyini formalaşdırmış ölkəmiz bunu daha da möhkəmləndirmək üçün media resurslarından səmərəli istifadə etməkdədir. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu söyləyib.

E.Mirbəşiroğlu bildrib ki, xarici KİV-in nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə intensiv səfərlərinin təşkil olunması, erməni vandalizminin və işğalçılıq siyasətinin izlərinin onlara əyani şəkildə nümayiş etdirilməsi Azərbaycanın postmünaqişə vəziyyətində haqlı mövqelərinin dünyaya çatdırılması baxımından olduqca vacibdir. Bundan əlavə, Ermənistanın təcavüzkar və işğalçı dövlət obrazının beynəlxalq ictimaiyyətə tanıdılması baxımından da belə səfərlərin təsirli rolu var. "Şuşa İli" çərçivəsində məhz Şuşada Beynəlxalq Media Forumunun təşkil olunması çox əlamətdar hadisədir. Çünki Azərbaycanın mədəniyyət paytaxtı Şuşa həm də mühüm siyasi əhəmiyyət kəsb edir.

"Tarixi Azərbaycan torpağı olan Qarabağın tacı Şuşada təşkil edilən hər tədbir, xüsusilə beynəlxalq tədbir mühüm psixoloji təsirə də malikdir. Birincisi, dünya aydın görür ki, bu ərazilər azərbaycanlıların qədimdən yaşadıqları tarixi torpaqlarıdır. İkincisi, ermənilərin bu torpaqlarda ancaq dağıntılar törətdiklərini də dünya ictimaiyyəti görür. Bu isə elə ermənilərin özləri tərəfindən bu torpaqlarla heç bir bağlılıqlarının olmamasının etirafı kimi qəbul edilir. Üçüncüsü, dünya Azərbaycanın gücünü, potensialını bir daha görür. İşğaldan azad etdiyimiz ərazilərdə həyata keçirilən dinamik tikinti-quruculuq işləri bir daha sübuta yetirir ki, ölkəmiz hərtərəfli potensiala malikdir, Ermənistanın tamamilə dağıtdığı yaşayış və qeyri-yaşayış infrastrukturlarını öz resursları hesabına bərpa etmək iqtidarındadır. Bu baxımdan, bir daha vurğulamaq lazımdır ki, Şuşada təşkil olunmuş Beynəlxalq Media Forumu olduqca əhəmiyyətlidir", - deyə deputat vurğulayıb.

Onun sözlərinə görə, iyirimi ölkədən media nümayəndələrinin Şuşaya səfərinin təşkil olunması, vacib mövzuların müzakirə olunduğu panellərin keçirilməsi həm məlumatlandırma, həm də maarifləndirmə baxımından səmərəli oldu. Eyni zamanda, ölkədaxili KİV nümayəndələrinin də ayrı-seçkilik olmadan forumda iştirakının təmin edilməsi ölkədə plüralist mühitin göstəricisi kimi qiymətləndirilməlidir.

Elşad Mirbəşiroğlu deyib: "Hesab edirəm ki, Şuşada keçirilmiş Beynəlxalq Media Forumundan sonra Azərbaycandakı həm ictimai münasibətlər, həm də postmünaqişə mərhələsinin reallıqları haqqında dünya ictimaiyyəti daha yaxından məlumatlanmış olacaq".

**Baxmayaraq ki, su, günəş, külək həyat üçün çox lazımlı amillərdir, lakin biz insanlar yağışlı ərazilərdə yaşayanda yağışın çox yağmasından, günəşli yerdə yaşayanda günəşin bolluğundan, küləkli yerdə yaşayanda küləyin çoxluğundan gileylənirik. Lakin fikirləşmirik ki, onların hər biri təbii resurslardır və həmin resurslara doğru gediləndə onlar yaxşı yaşayışa səbəb olur, ölkəyə milyonlarla manat vəsait gətirir. İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısının dediyi kimi: Bərpaolunan enerji növləri ilə bağlı mən giriş sözümdə qeyd etdim ki, bizim doğrudan da çox böyük potensialımız var. Artıq kontraktlar imzalandı, icra edilir və yeni kontraktların imzalanması gözlənilir, memorandumlar imzalanıb.**

# Külək milyonlar əsdirir...





## TƏHLİL-YANAŞMA

Bizim Xəzər dənizi kimi çox nəhəng bir enerji mənbəyimiz var. Bunu artıq beynəlxalq mütəxəssislər də qeyd edirlər. Xəzər dənizinin küləyi bəzi hallarda bizim üçün bəlkə də problem yaradır. Amma, əksinə, bu, Bakının havasını təmizləyir. Xəzri əsəndə biz hamımız sevinməliyik ki, şəhərə təmiz hava gəlir. Amma bu küləyin də çox böyük faydası ola bilər. Bir neçə böyük şirkətdən Xəzər dənizində külək elektrik stansiyalarının tikintisi ilə bağlı ilkin təkliflər gəlib. Onlar indi həm Energetika Nazirliyi, həm İqtisadiyyat Nazirliyi tərəfindən öyrənilir, təhlil aparılır. Əlbəttə, biz bilirik potensial nədir, biz bilirik ki, bu, xarici investorlar üçün cəlbedicidir. Onu da deməliyəm ki, artıq bu sahədə böyük şirkətlər arasında rəqabət var və çox ciddi rəqabət var. Mən indi o şirkətlərin adlarını çəkmək istəmirəm. Amma bu sahəyə investisiya qoymaq istəyənlərin sayı kifayət qədər çoxdur. Ona görə biz düzgün seçim edəcəyik. Yəni, demək istəyirəm ki, mən burada investisiyalarla bağlı qıtlıq görmürəm.

### Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malikdir

Ölkəmizin enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq bərpa olunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. Prezident cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malikdir. Ölkəmizdə bu potensialdan səmərəli istifadə edilməsi məqsədilə atılmış əsas addımlardan biri 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olub. Dövlət Proqramının qəbulu bərpa olunan enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaratmışdır. Həmçinin ölkəmizdə bərpa olunan energetika sahəsinin inkişaf etdirilməsi, bu sahədə qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi məqsədilə müvafiq qanun və normativ hüquqi aktlar qəbul edilmişdir. Bu sahə üzrə görülən işlər davam etdirilmiş və bərpa olunan enerjinin inkişafına xüsusi töhfə verən "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli Qanunu təsdiq edilmişdir. Qanunun tətbiqi və icrasının təmin edilməsi məqsədilə müvafiq tədbirlərin icrası davam etdirilməkdədir.

Faktlara nəzər salanda görmək olur ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 27 000 MVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Bəli, resurslarımız göz qabağındadır. Sadəcə olaraq bu resursların potensialından istifadə etməklə onları insanların sağlam həyatına və rifahına çevirmək olar ki, bu sahədə artıq ölkəmizdə xeyli işlər həyata keçirilib. Dövlətimizin başçısının müşavirədə dediyi kimi: Bir neçə kəlmə energetika sektoru ilə bağlı demək istərdim. Çünki bizim üçün bu, həmişə prioritet olub. Amma bu gün bizim enerji imkanımız bir çox ölkələr üçün də böyük önəm daşıyır. Bu sahədə də biz işimizi planlı şəkildə aparırıq. Əlbəttə, uzun illər ərzində böyük hazırlıq işləri gedib ki, bərpaolunan enerji növləri Azərbaycanda inkişaf etsin, ilk növbədə, xarici investorlar hesabına və nəhayət, buna nail ola bilmişik. Xarici investorlar öz vəsaiti hesabına Azərbaycanda 710 meqavat gücündə üç Günəş və külək elektrik stansiyasının tikintisi ilə məşğuldur. İkisi artıq inşa edilir, birinin də - Cəbrayıl rayonundakı stansiyanın inşası üçün hazırlıq işləri gedir. Yəqin ki, gələn il o inşaat da başlayacaq. Bu, ancaq başlanğıcdır. Bizim artıq xarici investorlarla əldə etdiyimiz razılaşmalara görə, əlavə iki min meqavat və ondan da əlavə iki min meqavat Günəş və külək elektrik stansiyalarının inşası nəzərdə tutulur. Üstəgəl, Kəlbəcər və Laçın rayonlarında su elektrik stansiyalarının istehsal gücü yenidən dəyərləndirilir. Çünki biz müharibədən sonra ancaq ermənilərin dağıtdıqları su elektrik stansiyalarının istehsal gücünü hesablamışdıq. Orada 32 su elektrik stansiyası var idi ki, ermənilər Kəlbəcər, Laçından gedəndə onları vəhşilər kimi dağıtdılar. Biz onları hesablayaraq müəyyən rəqəm səsləndirmişdik.

### Azad edilmiş torpaqlarımız "Yaşıl Enerji Zonası"na çevriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" 3 may 2021-ci il tarixində Sərəncam imzalanmışdır. Sərəncamdan irəli gələn tapşırıqların icrası məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. "Yaşıl Enerji Zonası"nın yaradılmasına dair tapşırığın icrası çərçivəsində işğaldan azad olunmuş bölgələrdə günəş, külək, biokütlə, termal, geotermal və digər bərpa olunan enerji potensialının öyrənilməsi, ərazilərin koordinatlarının təyin olunması məqsədilə, habelə mövcud resurslardan istifadə etməklə külək və günəş enerji stansiyalarının, həmçinin su anbarlarında, göllərdə, kiçik çaylarda su elektrik stansiyalarının tikilməsi ilə enerji təchizatının təmin olunması istiqamətində araşdırmalar aparılmaqdadır.

Dövlətimizin başçısı müşavirədə demişdir: Ancaq indi daha dərin təhlil aparılır. Çünki orada daha böyük həcmdə su elektrik stansiyalarının inşası mümkündür. İndi təhlil hazırlanır, yəqin ki, biz orada perspektivdə ancaq kiçik su elektrik stansiyalarından min-dən çox meqavat götürə bilərik. Artıq bir il yarım ərzində 9 su elektrik stansiyasının inşası ya başa çatıb, ya da ki, bu ilin sonuna qədər başa çatacaq. Bu da əlavə, bizə 50 meqavat verəcək. Yəni, bu sahə bizdə İkinci Qarabağ müharibəsinə qədər prioritet sahə idi. Ancaq bu gün bu, artıq yeni pilləyə qalxır. Yenə də demək istəyirəm ki, bərpaolunan enerji növlərinin istehsalına, - su elektrik stansiyalarından başqa, - dövlət bir manat da pul qoymur, ancaq xarici investisiyalar qoyulur. Əlbəttə, bu, bizə imkan verəcək ki, biz elektrik enerjisini daha böyük həcmlə ixrac edək. İndi biz ənənəvi yolla - mövcud olan yüksək gərginlikli xətlərlə ixrac edirik. Amma biz gələcəkdə Zəngəzur dəhlizi ilə elektrik ixracını təşkil edə bilərik və Avropa tərəfindən yeni layihə təqdim edildi. Qara dənizin altından Gürcüstandan Rumıniyaya qədər kabelin çəkilişi layihəsi də var və biz bu layihəyə də maraq göstəririk. Yəni, bu sahədə çox böyük perspektivlər var.

Müasir dünyada həyatımızı bir an belə elektrik enerjisi olmadan təsəvvür etmək olmaz. İndi elektrik enerjisi həm insanların asudə vaxtının mənalı təşkili, həm də payızqış fəsillərində evlərimizin istiliyi, yayda isə sərinliyi deməkdir. İstehsal müəssisələrini, nəqliyyatı və digər sahələri də nəzərə alsaq, elektrik enerjisi həyat deməkdir. O, bir dəqiqə yoxdursa, sanki həyat dayanır.

İşğaldan azad edilmiş torpaqlarımızda isə elektrik enerjisinə daha çox ehtiyacı var. Çünki həmin ərazilərdə böyük quruculuq-bərpa işləri həyata keçirilir ki, sakinlər rahat şəkildə evlərinə qayıtsınlar. Bu işlərin görülməsi isə sırf elektrik enerjisi ilə bağlıdır. Nəzərə alsaq ki, ermənilər torpaqlarımızı tərk edərkən bütün elektrik stansiyalarını dağıdıblar, deməli, Qarabağın işıqlandırılması bu gün təxirəsalınmaz məsələdir ki, dövlətimi bu məsələni əsas prioritet kimi görür.

Azad torpaqlarımızın coğrafiyası, təbii resursları bərpaolunan enerji mənbələridir. Həmin mənbələrdən istifadə etməklə buranın "Yaşıl Enerji Zonası"na çevrilməsi gələcəkdə ölkəmizdə həm ənənəvi elektrik enerjisinə qənaət deməkdir, həm də dövlətimizin daim diqqətində olan insan sağlamlığına töhfədir.

Yenə də faktlara nəzər salaraq demək olar ki, işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili su ehtiyatlarının təqribi 25%-i formalaşır və bu da təxminən illik 2.56 milyard m3 təşkil edir. Xüsusən qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə günəş enerji layihələri həyata keçirmək üçün əlverişli potensial var. Belə ki, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan Muxtar Respublikasında müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur.



İlkin müşahidələr nəticəsində əlverişli günəş radiasiyasına malik müvafiq ərazilər müəyyən edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə günəş enerjisi potensialı 7200 MVt-dan artıq qiymətləndirilir. Aparılan ilkin tədqiqatlar, günəş enerjisi layihələri üçün topoqrafiya, iqlim şəraiti, şəbəkəyə yaxınlıq, enerji istehsalı potensialı, nəqliyyat infrastrukturu və digər texniki faktorların müqayisəli təhlili əsasında Cəbrayıl və Zəngilan rayonlarının ərazisi məqsədəuyğun hesab edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə - xüsusən də Laçın və Kəlbəcərin dağlıq hissələrində əlverişli külək potensialının olması, ilkin araşdırmalara əsasən müəyyən edilmişdir. Təhlillər bu ərazilərdə külək enerjisi potensialının 2000 MVt ətrafında olmasını göstərir. İşğaldan azad edilmiş ərazilərdə geotermal enerji mənbələrinin olmasına dair əvvəlki illərdə müvafiq elmi araşdırmalar aparılmışdır. Geotermal enerjidən əsasən elektrik enerjisi istehsalı (əlverişli temperatur və debit olarsa), istilik enerjisi təminatı və turizm-balneoloji məqsədlər üçün istifadə edilir. İlkin təhlillər göstərir ki, Kiçik Qafqazın dağlıq hissəsində geotermal mənbələr var (4000-5000 m3/gün (30-74°C)). İlkin müşahidələrə əsasən, bu potensialdan müvafiq olaraq istilik təminatı və balneoloji məqsəd üçün istifadə daha məqsədəuyğundur.

## Biz gözləməməliyik ki, kimsə gəlsin qapımızı döysün

Dövlətimizin başçısı sözügedən müşavirədə çıxışının elektrik enerjisi ilə bağlı hissəsində maraqlı bir məqama da toxunmuşdur: Əsas ixrac yolları. Ona görə mən qeyd etdim - Zəngəzur dəhlizi, Qara dənizin altından çəkiləcək kabel, ənənəvi Azərbaycan-Gürcüstan-Türkiyə yolu, İran-Azərbaycan elektrik bağlantısı - bütün bu infrastruktura yenidən baxmaq lazımdır.

Əgər biz orta hesabla, belə demək mümkünsə, ildə 1000 meqavat gücündə elektrik enerjisini ixrac edə biliriksə, bizdə elə potensial olmalıdır ki, 5000 meqavat gücündə elektrik enerjisini ixrac edə bilək. Ona görə mən "Azərenerji"yə tapşırıq verdim, indi hökumətə də, aidiyyəti qurumlara da tapşırıq verirəm, biz bu işi əsaslı etməliyik. Yəni, əlavə 1000 meqavat, yaxud da 1500 meqavatla kifayətlənmək lazım deyil. Bəlkə də daha böyük investisiyalar qoyaq, amma elə edək ki, sabah bizdə artıq enerji hasil ediləndə ixracla problem olmasın. Potensial alıcılarla da danışıqlar başlanmalıdır. Məncə, biz gözləməməliyik ki, kimsə gəlsin qapımızı döysün, bu il özümüz bazarları, mümkün olan bazarları təsbit etməliyik. Oraya heyətlər göndərilməlidir, danışıqlar aparılmalıdır, şərtlər razılaşdırılmalıdır. Çünki gələcək bununla bağlıdır. Biz hamımız yaxşı bilirik ki, artıq ənənəvi enerji növlərinə investisiyalar dayanacaq. Hidrogen, yaşıl hidrogen, elektrik enerjisi - bunlardır gələcəyin enerji növləri. Biz burada bir addım geri olmamalıyıq, əksinə, qabağa getməliyik və bütün imkanlar var.

Bəli, ölkəmiz bərpaolunan enerji mənbələri ilə zəngindir. Bu resurslardan istifadə ölkəmizə milyonlarla manat vəsait gətirə bilər. Belə olan halda dövlətimizin başçısının da vurğuladığı kimi gözləməməliyik ki, kimsə qapını döysün. Biz enerjimizi istehsal etməli, təkliflərimizi verməli, ixracımızı həyata keçirməliyik.

## Müstəqillik illərində Naxçıvanda 9 yeni elektrik stansiyası qurulub

Naxçıvan Muxtar Respublikası bu gün ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadədə nümunə gücündədir. 90-cı illərdə Naxçıvan ermənilər tərəfindən blokadaya salınandan sonra muxtar respublikaya Ermənistan ərazisindən keçməklə gələn elektrik enerjisi dayandırıldı. Naxçıvan illərlə qaranlıqda, soyuqda qaldı. İstehsal müəssisələrinin fəaliyyəti dayandı. İnsanlar olmazın çətinlikləri ilə üzləşməli oldular. Lakin ölkəmizin iqtisadi vəziyyəti muxtar respublikada təbii resurslardan istifadəni də mümkünsüz etmişdi.

Sonrakı illərdə ölkəmizin iqtisadiyyatı inkişaf etdikcə muxtar respublikada ən vacib məsələ olan elektrik enerjisinin istehsalı üçün resurslardan istifadə olunmağa başlanıldı. Müstəqillik illərində Naxçıvanda 9 yeni elektrik stansiyası qurulmuşdur ki, bunun 5-i su, 4-ü isə günəş elektrik stansiyasıdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin məlumatına görə, ötən il elektrik stansiyalarında 444 804 006 kilovat-saat elektrik enerjisi istehsal edilib sistemə ötürülüb ki, bu enerjinin 129 570 936 kilovat-saatı və ya 29,13 faizi su elektrik stansiyalarında, 264 438 160 kilovat saatı və ya 59,45 faizi istilik elektrik stansiyalarında, 50 794 910 kilovat-saatı və ya 11,42 faizi Günəş elektrik stansiyalarında istehsal edilib. 2021-ci il ərzində alternativ və bərpa olunan enerji mənbələrində 180 365 846 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu, stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 40,55 faizini təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına son səfəri zamanı muxtar respublikanın enerji təhlükəsizliyi ilə bağlı görülən işləri yüksək qiymətləndirərək deyib: "Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpaolunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir". İşğaldan azad olunan torpaqlarımızda da yaxın gələcəkdə onlarla belə elektrik stansiyası Qarabağı başdan-başa nura boyayacaq, bütün evlərdən işıq gələcək, həm də insanların sağlamlığı üçün heç bir təhlükə olmayan işıq

## Sulu, günəşli, küləkli yaşıl həyat

Yuxarıda da vurğuladığımız kimi, məişət gəlirlərinin artması, nəqliyyat və istiliyin elektrikləşdirilməsi və rəqəmsal şəkildə qoşulmuş qurğulara və kondisioner sisteminə artan tələbat elektrik enerjisinə tələbatı da gündən-günə artırır. Mütəxəssislərin dediyinə görə, elektrik enerjisinə olan tələbatın artması enerji sektorundan qlobal $CO_2$ tullantılarının 2018-ci ildə rekord səviyyəyə çatmasının əsas səbəblərindən biri idi, buna baxmayaraq müxtəlif aşağı emissiya üzrə istehsal texnologiyalarının kommersiya mövcudluğu elektrik enerjisini də iqlim dəyişikliyi və ətraf mühitin çirklənməsi ilə mübarizə səylərinin önündə qoydu. Bundan əlavə, dekarbonizə edilmiş elektrik enerjisi hidrogen və ya sintetik maye yanacaq kimi elektrik əsaslı yanacaqlar vasitəsilə digər sektorlarda $CO_2$ tullantılarının azaldılması üçün də bir platforma ola bilər. Bərpaolunan enerji də hər kəsin elektrik enerjisinə əlçatanlığının təmin olunmasında, həm də karbon qazı emissiyasının azaldılmasında böyük rol oynayır.

Buradan məlum olur ki, bərpaolunan enerji mənbələri insanlara rahat, həm də sağlam həyat bəxş edir. Bu gün bütün dünya enerji təhlükəsizliyi fonunda təbiətin qorunmasında maraqlıdır. Ən nəhəng enerji şirkətləri belə bərpa olunan enerji mənbələrinə üstünlük verirlər. Çünki bu elektrik növlərinin tətbiqi insanların yaşıl həyata töhfəsidir.

Yaşıl həyat Bu gün dünyada qlobal təbiət problemləri fonunda insan sağlamlığı üçün gərəkli azlardan biridir. Yaşıl həyat ona zərər veriləcək bütün problemlərin qarşısını almaqla bərqərar ola bilər ki, onun da başlıcası bərpa olunan enerji mənbələridir. Belə isə sağlamlığımız naminə enerji təhlükəsizliyinə doğru addımlayaq

Küləklə başlayan yazımızı küləklə də bitirək. Bu gün dünya investorlarının böyük marağına səbəb olan küləklə. Bəzən çox güclü əsəndə "nə istəyir" dediyimiz küləklə. O külək ki, sən demə nə qədər güclü əsərsə, ölkəmizə bir o qədər də milyonlar gətirə bilər. Dövlətimizin başçısının da müşavirədə söylədiyi kimi, külək həm havanı təmizləyir, həm də faydalıdır.

Bu fayda isə gələcək külək elektrik stansiyaları ilə bağlı olacaqdır. Həyatın üç əsas amili-su, günəş, külək elektrik enerjisinə olan tələbatımızı ödəməklə yanaşı, həm də əsas amillərin dördüncüsünə-havaya, həm də təmiz havaya ehtiyacımızı ödəyir, yaşıl həyatımıza təminat verir. Yaşıl həyat isə sağlam həyat deməkdir. Belə isə ölkəmiz həmişə bol sulu, günəşli, küləkli olsun

***Mətanət MƏMMƏDOVA***

# Mövlud Çavuşoğlu: "Azərbaycan "İslam səkkizliyi"nə üzv olmaq üçün müraciət edib"



**"D-8 ("İslam səkkizliyi" - red.) təşkilatının daha da möhkəmləndirilməsi üçün nələr edəcəyimizi müzakirə edirik. Hazırda təşkilata Banqladeş sədrlik edir. Qarşımıza hədəflər qoymuşuq, 2030-cu il hədəflərimiz var. Bu hədəflərə yenidən nəzər salmağımız lazımdır". SİA xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "TV 100"ə müsahibəsində deyib. "Bu təşkilatı genişlətmək lazımdır. Azərbaycan quruma üzv olmaq üçün müraciət edib. Məsələn, təşkilatı D-20 edə bilərikmi? D-8-ə rəhbərliyimiz dövründə bunun üzərində işləmişdik. Üzvlük üçün meyarların konkretləşməsi lazımdır", - XİN başçısı bildirib.**

Qeyd edək ki, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı və ya qısaca D-8 səkkiz müsəlman ölkəsini birləşdirir. D-8 Türkiyənin o dövrdəki Baş naziri Nəcməddin Ərbakanın təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qurulub.

# İstirahət mərkəzlərində qida zəhərlənmələrinin sayı niyə artır?

"İstirahət mərkəzlərində zəhərlənmələrinin sayının artmasının səbəbləri ilk növbədə qida ilə qaynaqlı olur". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib. Onun sözlərinə görə, təbii ki, yay aylarında temperatur yüksək olur: "Bu baxımdan bir çox yüksək risk qruplu qidalar düzgün saxlanılmadıqda tərkibində mikroorqanizmlərin, bakteriyaların çoxalması üçün əlverişli mühit yaranır. Təbii ki, insanlar bu cür qidaları qəbul etdikdə zəhərlənmə halları baş verir.



Ümumiyyətlə ictimai-iaşə obyektlərində və istirahət mərkəzlərində qida seçərkən xüsusilə yay aylarında çox diqqətli olmaq lazımdır. Çünki temperatur rejimi yüksək olduğuna görə keyfiyyətli qidalar olsa belə düzgün saxlanılmadıqda bioloji çirklənməyə məruz alır. Buna xüsusilə zülal tərkibli qidalar aiddir. Ət, toyuq və süd məhsulları yüksək risk qrupuna aiddir. Bu məhsullar soyuducuda saxlanılmalıdır. Yalnız istifadə olunan zaman soyuducudan çıxarılmalıdır. Bundan əlavə olaraq istirahət mərkəzlərində və digər ictimai-iaşə obyektlərində qidalara düzgün şəkildə nəzarət olunmur. Təbii ki, belə olan halda zəhərlənmələrin baş verməsi qaçınılmazdır. Yay aylarında ən çox zəhərlənmələr qarpızdan baş verir. Qarpızın Azərbaycan üçün xarakterik olanı iyulun sonları avqust ayında nəzərdə tutulur. Lakin bu zamana qədər satışda kifayət qədər qarpızları görürük. Bu qarpızlar həddindən artıq kimyəvi dərmanlarla dərmanlanmış qarpızlardır. İnsan gün ərzində sadəcə bir qida ilə qidalanmır. İstirahət mərkəzlərinə gedərkən insanlar qarışıq məhsullara üstünlük verməməlidirlər. Daha çox meyvə və tərəvəzdən olan qidalara üstünlük verməlidirlər. Xüsusilə kifayət qədər su qəbul etməlidirlər".

***Arzu Qurbanlı***



# Meymunçiçəyi dünyanı cənginə alır

## *Peyvəndlənmə cəmiyyətləri və iqtisadiyyatı qorumaq üçün yeganə optimal yoldur*

***COVİD-19 adlı bu bəladan dünyanın bütün dövlətləri həm maddi, həm də, mənəvi böyük xəsarətlər almaqdadır. Dünyanın iqtisadi, siyasi və hərbi gücünə görə seçilən dövlətlərinin hamısı bu virusun acı nəticələrini yaşadı və bu gün də davam etməkdədir. 2020-ci il bütün dünyanı, o cümlədən ölkəmizi çətin sınaq qarşısında qoydu. 2019-cu ilin dekabrında Çində başlayan Covid-19 pandemiyası tezliklə bütün dünyaya yayıldı və dünya dövlətlərini sınağa çəkdi.***

Pandemiya başlayana qədər dünyanada etalon sayılan, qabaqcıl səhiyyə sisteminə malik Almaniya, İtaliya, Fransa kimi ölkələr pandemiya qarşısında çətin durumda qaldı, tibbi ləvazimat, xəstəxanalarda yer çatışmazlığı, xəstələr arasında çoxsaylı ölüm halları humanitar fəlakət həddinə çatdı. Bu ölkələrdə xəstəxanalarda yer qıtlığı və tibbi personalın çatışmazlığı bütün xəstələrə lazımi tibbi köməyin göstərilməsinə imkan vermədi. Baş verən hadisələr bir daha göstərdi ki, dünyanı bürüyən üçün sülhün və ədalətin tərəfdarı kimi çıxış edərək insanlığın xilası missiyasını üzərinə götürdü. Məhz buna görə də bu gün dünya birliyi özü Azərbaycanla əməkdaşlığa böyük həvəs göstərir. Bu günün vəziyyəti yenə də ürəkaçan deyil. Bu gün bütün dünya ölkələri böyük bir gərginliyin qarşısında müəyyən qədər çətin, müəyyən qədər əzablı bir durumla qarşı - qarşıya dayanıb. Bütün ölkələr yayılmış bu virusun yoxluğunu təmin etməyə çalışır.



bəlaların öhdəsində yalnız birlikdə gəlmək mümkündür. Xüsusi olaraq qeyd etməliyik ki, Azərbaycan Prezidenti İlham Əliyevin mövcud vəziyyətlə əlaqədar çoxsaylı ikili videokonfrans formatında görüşlər keçirmiş, dünya dövlətlərini ortaq düşmənlə mübarizədə vahidlik, birlik nümayiş etdirməyə çağırmışdı. Türk Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının videokonfrans vasitəsilə Zirvə görüşü xüsusi əhəmiyyətlidir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən irəli sürülən təklif yüksək qiymətləndiriləərək qəbul edilmişdir. Ölkə başçısının həmrəylik və birlik çağırışı eyni zamanda insan amilinə verilən dəyərin bariz nümunəsi, ölkəmizin humanizim siyasətinin əsasıdır. Bu günə qədər 30-dan çox ölkəyə müxtəlif səpkidə köməyini əsirgəməyən Azərbaycan yenə də kömək əlini uzatmağa hazır olduğunu bəyan etdi. Ermənistandan fərqli olaraq Azərbaycan bütün dünya

### HƏR BİR VƏTƏNDAŞ HƏMRƏYLİK NÜMAYİŞ ETDİRDİ

Ölkəmizin böhranla mübarizədə nəticələri deməyə əsas verir ki, Azərbaycan xalqı, dövləti, xalq-iqtidar öz sözünü demiş oldu. Vurğulamaq yerinə düşər ki, dəfələrlə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev öz çıxışlarında, xalqla bir başa görüşlərində Azərbaycanda aparılan sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının dayandığını ifadə etmişdir. Virusla bağlı böhran ortaya çıxanda da biz bunun şahidinə çevrildik. Pandimiyanın ilk günlərindən ölkə rəhbəri Cənab İlham Əliyevin çevik qərarları və tapşırıqlarıya bu bəlanın ilkin mərhələsindən müsbət nəticələr əldə etdik. Demək, hər bir vətəndaş bu dönəmdə həmrəylik nümayiş etdirib, eyni fikri bölüşdü və dövlət siyasətinə dəstək oldu. Bu gün də belədir. Dövlətin verdiyi qərarlara insanlar əməl edirlər. Bu, vətəndaşın öz Liderinə olan inamının ifadəsidir.

Ölkəmizin böhranla mübarizədə nəticələri deməyə əsas verir ki, Azərbaycan xalqı, dövləti, xalq-iqtidar öz sözünü demiş oldu. Vurğulamaq yerinə düşər ki, dəfələrlə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev öz çıxışlarında, xalqla bir başa görüşlərində Azərbaycanda aparılan sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının dayandığını ifadə etmişdir. Virusla bağlı



böhran ortaya çıxanda da biz bunun şahidinə çevrildik. Prezidentin təşəbbüsü ilə 2020-ci ilin mart ayında Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrıldı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın öz əmək haqlarını bu fonda köçürmələri bir nümunəyə çevrildi. Dövlət başçısının bu çağırışına ölkəmizdən və dünyada yaşayan azərbaycanlılardan dəstək gəldi. Vax-



tında ölkədə xüsusi karantin rejimi yaradılması digər ölkələrdə olan faciəvi sonluqların vətənimizdə yaşanmasının qarşısının aldı. Prezident İlham Əliyevin koronavirusla mübarizə məqsədilə modul tipli xəstəxanaların tikilməsi haqqında Sərəncamı xəstəxanaların çarpayı ehtiyatını artırmağa böyük kömək oldu. Ən müasir avadanlıqlarla təchiz edilmiş xəstəxanalar peşəkar həkim personalı ilə koronavirusla mübarizə üçün hazır vəziyyətə gətirildi. Ən mühüm addımlardan biri isə qısa müddət ərzində tibbi vasitə müəssisələrinin fəaliyyətə başlaması oldu. Artıq dezinfeksiya vasitələri, tibbi maskalar, həkimlərin geyindiyi xüsusi geyim və kombinezonlar öz ölkəmizdə istehsal olunur.

### "OMİKRON" ŞTAMMININ YÜKSƏK DƏRƏCƏDƏ YOLUXUCU ALT NÖVLƏRİ YAYILIB

Bütün bu qabaqlayıcı tədbirlərə baxmayaraq, 10.000 (on min) yaxın insan bu virusun qurbanına çevrildi. Əlbəttə ki, bu göstərici dünya ölkələri ilə müqayisədə daha az itki deməkdir. Dünya insanı bu virusla vidalaşmaq istərkən yenidən həyəcan təbilləri çalındı. "Omikron" ştammının yüksək dərəcədə yoluxucu alt növlərinin yayılması fonunda Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-a qarşı Qlobal Vaksinasiya Strategiyasının yenilənmiş versiyasını dərc edib. COVID-19-a qarşı vaksinlərin tətbiq edilməsinin ilk ilində 19,8 milyon insanın həyatını xilas etməyə nail olunub. Dünya üzrə 12 milyarddan çox doza istifadə edilib ki, bu da ölkələrə orta hesabla əhalisinin 60 faizini vaksinasiya ilə əhatə etməyə imkan verib.

Bununla belə, aşağı gəlirli ölkələrdə yaşlı insanların yalnız 28 faizi və tibb işçilərinin 37 faizi ilkin vaksinasiyadan keçib. 27 ölkədə hələ ki, "buster" və ya əlavə doza kampaniyasına başlanılmayıb, onlardan on biri aşağı gəlirli ölkələrdir.

Yenilənmiş strategiya ölüm və ağır xəstələnmə hallarını azaltmaq üçün ilkin və buster dozaların istifadəsini təklif edir. Strategiya əvvəlki kimi hər bir ölkədə əhalinin ən azı 70 faizinin peyvənd edilməsinə istiqamətlənir. Lakin ilk növbədə tibb işçilərinin 100 faizini və əhalinin ən həssas təbəqələrinin, o cümlədən yaşlıların (60 yaşdan yuxarı) və immun sistemi zəifləmiş və ya yanaşı xəstəlikləri olan insanların 100 faizini peyvənd etmək lazımdır. "Ən çox risk altında olanların hamısının peyvənd olunması həyatları xilas etmək, səhiyyə sistemlərini müdafiə etmək və cəmiyyətləri və iqtisadiyyatı qorumaq üçün yeganə optimal yoldur", - deyə ÜST-nin baş direktoru Tedros Qebreyesus bildirib. Qeyd edək ki, Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 807 min 963, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 365 min 3, ikinci mərhələ üzrə 4 milyon 857 min 242, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 332 min 374, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 253 min 344-dür.

### YENİ NÖV VİRUS YENƏ DƏ BİZİMLƏ BƏRABƏR YAŞAYIR

Ölkəmizdə qabaqlayıcı tədbirlərin nəticəsi olaraq yoluxma sayı bir və ya iki rəqəm üzrə dəyişirdisə, bu gün üç rəqəmlidir. Gün ərizində 300-dən artıq yoluxma qeydə alınırsa, bir daha məsuliyyətli olaq. Onu da qeyd edək ki, son iki həftə ərzində qonşu Türkiyə, İran, Gürcüstan və Rusiyada koronavirusa yoluxanların sayında əhəmiyyətli dərəcədə artım qeydə alınıb. COVID-19 virusunun yeni mutasiyalarının meydana çıxması ilə onun klinik mənzərəsi çox da dəyişməyib. Mütəxəssislərin qənaətinə görə, bu, qızdırma, zəiflik, baş ağrıları və əzələ ağrısı, qarın ağrısı və ishaldır. Bunun qarşısını almaq üçün əllərin tez-tez və düzgün yuyulması, sosial məsafənin saxlanması, insanların sıx toplaşdığı yerlərdə, xüsusən, qapalı məkanlarda və ictimai nəqliyyatda maskaların taxılması, otaqların tez-tez havalandırılması vacib tövsiyələrdən biridir. Unutmayaq, yeni növ koronavirus yenə də bizimlə bərabər yaşayır.

**Nəzakət ƏLƏDDİNQIZI**

Təhlil

# Heç kim unudulmur, heç kim yaddan çıxmır!

## I Qarabağ müharibəsi şəhidinin doğum günündə ailəsi ziyarət olunub



***I Qarabağ müharibəsində Vətənimizin müdafiəsi uğrunda öz canından keçərək itkin düşən şəhid Əliyev Ehtiram Canəli oğlunun doğum günü ilə əlaqədar ailəsi ziyarət olunub.***

Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, təşkilatın əməkdaşı Samir Ağayev və Aşağı Cürəli kənd ərazi partiya təşkilatının sədr müavini Elvin Şirinov Aşağı Cürəli kəndində şəhidin ata yurdunu ziyarət edərək, ailənin qayğı və problemləri ilə maraqlandılar.

Rayon təşkilatının sədri Kamil Qurbanlı bildirdi ki, bu gün Birinci Qarabağ müharibəsi şəhidlərinin ruhu şaddır. Çünki uğrunda şəhid olduqları, müstəqil və azad görmək istədikləri Azərbaycanın ərazi bütövlüyü Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz tərəfindən bərpa olunub. Vətən uğrunda qəhrəmanlıqla vuruşaraq şəhid olan və döyüşlərdən qəhrəman kimi ayrılan, cəsur, igid, qorxmaz Azərbaycan oğullarına xalqımız daim minnətdar olacaq. Ziyarət zamanı dövlətimizin şəhid ailələrinə və qazilərə göstərdiyi diqqət və qayğıdan danışıldı. Şəhidin qardaşı Samir Əliyev göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

***Allah rəhmət eləsin!***
***Rəfiqə***




# Cəlilabadda şəhid Mirsəfa Mirəşrəfbəylinin məzarı ziyarət olunub



YAP Cəlilabad rayon təşkilatının rəhbərliyi, aparat işçiləri və partiya fəalları 27 iyu1 2022-ci il tarixdə Cəlilabad rayon Badamağac kəndində şəhid Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğlunun doğum günü ilə əlaqədar şəhidin məzarını ziyarət etmiş, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəmanımızın məzarı üzərinə gül dəstələri düzmüş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər. Sonra tədbir iştirakçıları şəhidin ailəsi ilə görüşmüş, onların qayğı və problemləri ilə maraqlanmışlar. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını və razılıqlarını ifadə etmişlər.

# YAP Bərdə rayon təşkilatı növbəti tədbir keçirib

***YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun növbəti tədbiri Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaradılmasının 28-ci ildönümünə həsr edilmişdir. Tədbir "İdeoloji maarifləndirmə konsepsiyası"nın milli maraqlar və həmrəylik mövzusu ilə bağlı YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun üzvü, Bərdə rayon Gənclər və İdman idarəsinin rəisi Hikmət Ələkbərlinin təşkilatçılığı ilə Bərdə Heydər Əliyev adına park-bulvarda idman nümayişi formasında keçirilmişdir.***





Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzülərək əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilmişdir.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

YAP Bərdə rayon təşkilatı təbliğat qrupunun üzvü, rayon Gənclər və İdman idarəsinin rəisi Hikmət Ələkbərli mövzu ilə bağlı ətraflı danışaraq dövlət Gənclər və İdman siyasətinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olmasından, Azərbaycan gəncliyinin formalaşmasında və inkişafında, ölkəmizdə idmanın tərəqqisində müvafiq Nazirliyin mühüm rolundan söz açmışdır. Qeyd etmişdir ki, sevindirici haldır ki, bu gün ölkə gəncliyi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək , Azərbaycançılıq ideologiyası ətrafında həmrəylik yaradaraq Azərbaycanımıza yeni-yeni uğurlar qazandırır. Hazırda ölkəmizdə çoxlu sayda vətənpərvər, intellektual, nümunəvi və dünya miqyasında öz sözünü deyə bilən gənclər və idmançılar yetişməkdədir.

YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya çıxış edərək qeyd etdi ki, Azərbaycanda gənclərə, idmançılara dövlət qayğısı uğurlu gələcəyə hesablanan bir siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir. F.Şadlinskaya eyni zamanda 44 günlük Vətən müharibəsində idmançı və gənc əsgər və zabitlərin vahid komandanlıq ətrafında dəmir yumruq olmasından, xalq, iqtidar və ordunun möhtəşəm birliyinin qazandırdığı Böyük Qələbədən söz açmışdır.

300 nəfəri əhatə edən tədbir idmançıların idmanın gimnastika, cüdo, sambo, sərbəst güləş, qol güləşi, kikboksinq, muay-tay, boks, MMA, budo, Uşu-sanda, kyokuşinkaykan və cyui-taido növləri üzrə nümunəvi çıxışları ilə davam etmişdir. Tədbir boyunca vətən sevgisini və inamını tərənnüm edən mahnılar səsləndirilmişdir.

# NATO-Rusiya: dünən, bu gün və sonra...

***İngiltərənin hazırda baş naziri postunu sentyabr ayına qədər idarə edən Boris Consonun NATO-nun Baş Katibliyinə gətiriləcəyi xəbəri aydın səmada şimşək çaxması kimi siyasi arenada effekt yaratdı. Niyə? Məgər onun NATO-nun baş katibi kimi fəaliyyət göstərməsinə əngəl olacaq hər hansı bir özəllik varmı? Əksəriyyət buna "yox" cavabını verəcək. Amma Boris Consonun Ukraynada keçirdiyi xüsusi hərbi kampaniya səbəbindən Rusiyaya münasibəti, aqressiv tonda çıxışlar etməsi, Moskva ilə güc dilində danışmağa üstünlük verməsi onun NATO rəhbəri kimi hansı addımlar atacağını indidən söyləmək olar. Bir sözlə, B.Consonun əlində NATO-nun cəbbəxanası olduğu halda niyə Rusiya kimi bir düşməninə öz gücünü göstərməsin.***



Əgər Conson dünyanın qorxduğunu reallaşdırsa, Rusiyaya qarşı hərbi əməliyyatlara başlasa, ən azından Moskvaya qarşı indiki ritorikasını bir az artırsa nələr olacağını təsəvvür etmək olmur.

Britaniyanın "The Telegraph" qəzeti yazır ki, bəzi Britaniya rəsmiləri Böyük Britaniyanın baş nazirinin NATO-nun baş katibi vəzifəsinə namizədliyini dəstəkləyir. Eyni zamanda, nəşrin mənbələri Fransanın cənab Consonun təyin edilməsi qərarına veto qoya biləcəyindən ehtiyatlanır. "The Telegraph" yazır ki, Boris Consonun NATO-nun baş katibi postuna namizədliyini Müdafiə Komitəsinin üzvləri Riçard Draks və Mark Fransua və Böyük Britaniyanın keçmiş XİN başçısı Devid Cons da dəstəkləyir. Həmçinin, cənab Conson ABŞ və Ukraynadan dəstək ala bilər.

The Telegraph-a müsahibə verən bəzi rəsmilər hesab edir ki, Fransa prezidenti Emmanuel Makron cənab Consonun bu vəzifəyə təyin edilməsi qərarına veto qoya bilər. Qəzet bunu münasibətlərinin gərgin olması ilə izah edib. Həmçinin nəşrin mənbələri hesab edir ki, baş nazir onunla bağlı siyasi qalmaqallara görə bu vəzifəni tutmaya bilər.

Qeyd edək ki, NATO-nun hazırkı baş katibi Yens Stoltenberqin səlahiyyətləri 2023-cü ilin sentyabrında başa çatır. Boris Conson yeni partiya lideri və hökumət başçısı seçilənə qədər baş nazir səlahiyyətlərini və Mühafizəkarlar Partiyasının lideri vəzifəsini icra edəcək. Mühafizəkarlar Partiyasının səsverməsinin nəticələri sentyabrın 5-də açıqlanmalıdır.

Rusiyadan isə fərqli reaksiyaları eşidirik. Moskva Şimali Atlantika Alyansının Ukrayna ərazisinə tədricən müdaxiləsini müşahidə edir və artıq buna dözə bilmir. Bunu Rusiya liderinin mətbuat katibi Dmitri Peskov bildirib: "Biz öz infrastrukturu, təlimatçıları, müdafiə və hücum silahlarının ehtiyatları, Ukrayna hərbçilərinin təlimi və s. ilə NATO-nun Ukraynaya tədricən müdaxiləsini görürük". Onun sözlərinə görə, hadisələrin bu inkişafı Moskva ilə NATO arasında münasibətləri "qırmızı xətt"ə gətirib çıxarıb ki, bu vəziyyətə Rusiya "artıq dözə bilməz".

NATO rəhbəri Yens Stoltenberq bildirib ki, alyansın Madriddə keçirilən sammitində blok üzvləri Rusiyanı dünya üçün "təhlükəsizlik və sabitliyə təhdid" adlandırdılar. Onun sözlərinə görə, yeni sənəddə Rusiya Federasiyasının alyansın "artıq tərəfdaşı olmadığı" qeyd olundu. Ekspertlər Stoltenberqin NATO-nun Rusiya Federasiyasını "təhlükə" adlandırması ilə bağlı bəyanatını blokun son 30 ildə apardığı genişlənmə və dünyada öz hökmranlığını bərqərar etmək istiqamətində alyansın anti-Rusiya siyasətinin davamı kimi qiymətləndirirlər.

NATO Rusiyanı bütün dünyaya, sabitliyə və blokun özünə təhlükəsizlik təhlükəsi elan edib. Bunu alyansın baş katibi Yens Stoltenberq "Bild am Sonntag" tabloidinə müsahibəsində deyib. Onun sözlərinə görə, bu barədə NATO-nun Madriddə keçirilən sammiti zamanı elan olundu və burada alyans üçün yeni strateji konsepsiyanın qəbulu həyata keçirildi: "Dünya dəyişəndə NATO da dəyişir. Və dünya daha təhlükəli hala gəlib. Biz elan etdik ki, Rusiya artıq tərəfdaş deyil, bizim təhlükəsizliyimiz, sülh və sabitliyimiz üçün təhdiddir".

Stoltenberq sözlərinə görə, Şimali Atlantika Alyansı "Ukraynanı dəstəkləməyə davam edəcək", lakin özünü "münaqişənin bir hissəsi" hesab etmir. "Biz ölkəyə kömək edirik, lakin NATO qoşunlarını Ukraynaya göndərməyəcəyik", - alyansın rəhbəri deyib.

Eyni zamanda, Qərbin Rusiyanın "nüvə silahından qorxması" barədə sualına Stoltenberq deyib ki, NATO Rusiya nüvə qüvvələrinin hazırlıq səviyyəsində artım görmür: "Bununla belə, Rusiyanın nüvə tıqqıltısı təhlükəli və məsuliyyətsizdir. Putin bilməlidir ki, nüvə müharibəsində qalib gəlmək olmaz, onu heç vaxt açmaq olmaz. Bizim Rusiyaya açıq siqnalımız ondan ibarətdir ki, NATO bütün üzv ölkələri qoruyur".

Bundan əvvəl, NATO baş katibinin müavini Mirça Coana Kopenhagen Demokratiya Sammitində demişdi ki, NATO-nun yeni strateji konsepsiyası böyük güclərin rəqabəti dövrünü əks etdirəcək. O, Rusiyanın Avropada və onun hüdudlarından kənarda NATO-nun təhlükəsizliyinə "ən mühüm çağırışlardan birinə" çevrildiyini qəbul edəcək.

Xatırladaq ki, hazırda NATO-nun 2010-cu ilin noyabrında elan edilmiş "Fəal iştirak, müasir müdafiə" strateji konsepsiyası qüvvədədir. Sənəddə bildirilir ki, NATO üçün Rusiya ilə əməkdaşlıq "strateji əhəmiyyət kəsb edir", çünki o, "ümumi sülh, sabitlik və təhlükəsizlik məkanı"nın yaradılmasına töhfə verir: "NATO Rusiya üçün təhlükə yaratmır. Əksinə, biz NATO ilə Rusiya arasında həqiqətən də strateji tərəfdaşlıq görmək istəyirik və Rusiyadan qarşılıqlılıq gözləyərək buna uyğun hərəkət edəcəyik", - deyə hazırkı strategiyada bildirilir.

2017-ci ilin avqustunda Birləşmiş Ştatlar Amerikanın Düşmənlərinə Sanksiyalar Yoluyla Mübarizə Aktını (CAATSA) qəbul etdi. O cümlədən Rusiyanın da həmin siyahıda adı keçir. 2018-ci ildə Vaşinqtonda Rusiya Federasiyasının "regional məhdudlaşdırılmasının" zəruriliyini vurğulayan Nüvə Duruşu İcmalı (NPR) nəşr olundu. Sənədi hazırlayanların fikrincə, Rusiya tərəfi "nüvə silahından istənilən istifadənin, nə qədər məhdud olsa da, qəbuledilməz olduğunu başa düşməlidir". Eyni zamanda, sənəddə Vaşinqtonun "əhəmiyyətli qeyri-nüvə strateji hücumuna" cavab olaraq öz nüvə arsenalından istifadə etmək hüququ bəyan edilib, xüsusən də bu, ABŞ və onun müttəfiqlərinin infrastrukturuna, əhalisinə və ya komanda məntəqələrinə təsir edərsə.

2021-ci ilin mart ayında ABŞ-ın 46-cı prezidenti Co Baydenin yeni administrasiyası ölkənin müvəqqəti strateji milli təhlükəsizlik bələdçisini dərc etdi, burada Rusiya artıq birbaşa olaraq Birləşmiş Ştatlara qarşı "təhdid" olaraq təyin olundu. Moskva isə ona aid edilən təcavüzkar niyyətləri dəfələrlə təkzib edib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın sözlərinə görə, ABŞ-ın əsas düşməni istənilən sahədə onlarla rəqabət aparacaq bütün şəxslər hesab olunacaq: "Müvafiq olaraq, Rusiyanı cilovlamaq, ölkəmizlə bərabər səviyyədə rəqabət aparmaq, önə keçmək, rəqabət aparmaq imkanı verməmək kimi bir niyyət var ortada".

Qeyd etmək lazımdır ki, 2021-ci ilin sonunda həm ABŞ, həm də NATO Rusiya Federasiyasının təklif etdiyi təhlükəsizlik təminatlarını və xüsusilə Şimali Atlantika Alyansının genişlənməməsinə dair bəndin daxil olduğu müvafiq sənədləri müzakirə etməkdən imtina ediblər.

Moskva Dövlət Pedaqoji Universitetinin Tarix və Siyasət İnstitutunun direktor müavini Vladimir Şapovalov Vladimir Şapovalovun sözlərinə görə, Stoltenberqin alyansın Rusiyanı "təhlükə" adlandırmaq niyyəti barədə bəyanatı genişlənmə və onun yaradılması istiqamətində anti-Rusiya kursunun davamıdır. NATO-nun son 30 ildə həyata keçirdiyi bütün layihələrdə və atılan hər addımda dünyada dominantlıq istəyi dayanır: "Əslində dünya üçün təhlükə Rusiya deyil, blokun sözsüz lideri olan ABŞ-ın rəhbərlik etdiyi NATO-dur. Alyans öz maraqları naminə hətta ölkələri ilə sərhəd olmayan ərazilərdə birdən çox böyük hərbi kampaniya həyata keçirib. Bundan əlavə, blok daim öz sıralarını genişləndirir və Rusiya Federasiyasının sərhədlərinə yaxınlaşır, təzyiqlərini artırır. Növbəti sırada Rusiya ilə həmsərhəd olan İsveç və Finlandiya gəlir. Buna görə də Stoltenberqin Rusiya Federasiyasından ehtimal edilən "təhlükə" ilə bağlı açıqlaması tamamilə həqiqətə uyğun deyil".

Şapovalovun sözlərinə görə, Rusiya uzun müddətdir ki, qeyri-rəsmi səviyyədə NATO ölkələri üçün "təhdid və düşmən" olub, lakin indi blok Rusiya Federasiyasının statusunu sənədləşdirmək niyyətindədir: "Əvvəllər bu, sadəcə olaraq açıq deyildi, amma əslində son onilliklərdə NATO-nun bütün hərəkətləri Rusiyaya qarşı yönəlib. Soyuq müharibənin başa çatmasına baxmayaraq, hərbi ittifaq dağılmadı və daha konkret olaraq Rusiya Federasiyasına qarşı çıxmağa başladı "deyə analitik qeyd etdi.

Ekspertin sözlərinə görə, Rusiyanı bütün dünya üçün "təhlükələr" sırasına daxil edən NATO Rusiya Federasiyasına qarşı düşmən münasibətini nümayiş etdirir. Və əgər alyansın sənədlərində belə dəyişikliklər edilərsə, NATO ilə Rusiya arasında mürəkkəb münasibətlər yeni, artıq rəsmi səviyyəyə çatacaq. Bu o deməkdir ki, bütün məsələlər atılacaq və NATO siyasətinin anti-Rusiya mahiyyəti tamamilə açıq olacaq.

Eyni zamanda, nə ABŞ, nə də Avropa Rusiya ilə birbaşa silahlı münaqişəyə qərar verməyəcək, çünki onun son dərəcə "güclü çəkindirici qüvvəsi" var: "Bu, Rusiya Federasiyasının istənilən təhdidlərə adekvat cavab verə biləcəyi hərbi potensialıdır. Lakin, təbii ki, Stoltenberqin Rusiyanın "təhlükə" olması barədə bəyanatı və bu mövzuda əlavə normativ sənədlər Rusiya Federasiyası ilə blok arasında gərginliyin kəskin artmasına və anti-Rusiya əhval-ruhiyyəsinin və militarizasiyanın daha da artmasına səbəb olub".

Söhbət əslində Ukrayna Silahlı Qüvvələrinin nümayəndələrinin əli ilə proksi müharibədən və Rusiya Federasiyasına sanksiya təzyiqindən gedir. Amma fakt budur ki, Qərb dövlətlərinin Rusiyaya qarşı düşmənçilik fəaliyyəti NATO dövlətlərinin özlərinə ziyan vurur. Bununla belə, eyni Aİ ölkələri ABŞ-la dialoqda tabe mövqeyə malikdirlər və buna görə də anti-Rusiya tədbirləri səbəbindən böyük itkilər vermək məcburiyyətindədirlər.

Əgər bundan əvvəl strateji planlaşdırma sənədlərində Rusiya ABŞ-ın düşməni kimi göstərilibsə, indi bu, təkcə NATO-nun deyil, həm də ona üzv olan ölkələrin sənədlərində qeyd olunub. Blokun Rusiya Federasiyasına qarşı konsolidasiya edilmiş mövqeyi var: əgər o, tərəfdaş deyilsə, deməli, düşməndir. Söhbət Rusiya təhlükəsini legitimləşdirməkdən gedir. Rusiya eskalasiyanın daha yüksək dərəcəsinə baxmayaraq, onun "təhlükə" şəklində yeni statusu NATO sənədlərində təsbit edilərsə, reallıqda heç nə itirilməyəcək. Onsuz da tərəflər arasında heç bir münasibət olmayıb. Blok Moskvadan eşitmək və birgə təhlükəsizlik zəmanətlərinin qəbuluna gəlmək istəmədi. Üstəlik, blok tərəfindən daima Rusiya Federasiyasına qarşı qeyri-dost hərəkətlər edilib. NATO Rusiyaya psixoloji təzyiqi artıracaq, eyni zamanda Rusiya Federasiyasını qorxutmaq üçün sərt bəyanatların sayını artıracaq. Lakin Qərbdə heç kim Rusiya ilə birbaşa qarşıdurmaya başlamaq niyyətində deyil. Onlar Rusiyanın hərbi potensialını yaxşı bilirlər və belə riskə getmək istəmirlər.

**V.VƏLİYEV**

# Turizm üçün daha çox hansı bölgələr əlverişlidir?



***İqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması siyasətinin həyata keçirildiyi Azərbaycanda turizmin inkişafı böyük perspektivlər vəd edir.***



Ölkəmizdə turizmin bir çox sahələrinin inkişafı üçün geniş resurslar mövcuddur.Ərazisinin nisbətən kiçikliyinə baxmayaraq, turizmin inkişafı üçün yetərli qədər təbii ehtiyatlara, maddi-texniki bazaya və tarixən formalaşmış mədəni irsə malik olması Azərbaycanı potensial turizm ölkəsinə çevirə biləcək amillər hesab olunur. Əlbəttə ki, bunlarla yanaşı, bu sahədə dövlət dəstəyi əsas məsələlərdən biri hesab olunur. Son 10 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə turizm sahəsində bir sıra islahatlar aparılıb. Azərbaycanın turizm potensialının gündən-günə daha da gücləndəcəyi artıq bir reallıqdır. Qədim Şuşada, eləcə də işğaldan azad edilən bütün ərazilərdə bərpa və quruculuq işləri sürətlə davam etdirilir. Şəhərin tarixi siması saxlanılmaqla ən müasir formada bərpa edilir, dünya standartlarına uyğun turizm infrastrukturu yaradılır.

**Turizm eksperti Ramin Zamanov SİA-ya açıqlamasında** daha çox turist axını olan bölgələrin Şəki, Qəbələ, Quba-Qusar olduğunu qeyd edib. Qiymətlər yerləşmə və konfortdan asılı olaraq 60-200 AZN arası dəyişir. Həmçinin həftə sonları qiymətlərdə yüksəliş müşahidə olunur. Bu da tələbatın həftəsonlarında daha çox olmasını göstərir. Rəqabət çox olan bölgələrdə də qiymətlərin stabil qaldığını görürük. Eyni zamanda rəqabətə tab gətirmək üçün keyfiyyətə üstünlük verilir. Bunlardan daha az cənub istiqamətində müşahidə olunur.

**Skal İnternational BAKU ( Turizm Peşəkarları) klubunun prezidenti Ceyhun Aşurov** da həmçinin bu il daha çox bölgələrdə doluluq müşahidə olunduğunu deyir.

Quru sərhədlərimiz açıq olmasa da, hava sərhədlərimiz açıqdır və xaricdən gələn qonaqlar da regionlara səfər edirlər. Eyni zamanda öz vətəndaşlarımız da şimal regionlara üz tutur. O regionlar daha çox turist cəlb edir ki, həmin regionlarda turizm infrastrukturunda geniş imkanlar olsun. Buna yol, onların qalmağı üçün rahat şəraitli otellər, əyləncə mərkəzləri və s. daxildir. Yol faktoru da müəyyən qədər rol oynayır. Paytaxtdan çox da uzaq olmayan, maşınla az məsafə qət edəcək yerlər daha çox turistlər üçün əlverişli hesab olunur. Daha çox 3 saatlıq yol olan bölgələrə üz tuturlar, qiymətlərə gəlincə isə əvvəlki illərə nisbətən bu il çox turist axını var, amma qiymətlər yaxın ərazilərdə daha mülayimdir. Həmçinin xaricə gedən turistlərin sayında da artım görünür. 2019 cu ildə 5,5 milyon Azərbaycan vətəndaşı xaricə səfərlər edirdisə, bu illər həmin qədər olmasa da, xaricə gedənlərin sayı da az deyil. Buna səbəb kimi biletlərin baha olması, oradakı otellərin qiymət artımı ilə əlaqədar olaraq xaricə getmək istəyənlərin çoxusu öz istirahətlərini daxili bölgələrə yönəldirlər.

***Havar Şəfiyeva***







# ARAŞDIRMA

# Erməni mediası daha nə yazır?

***Hraparak: "Bəs 44 günlük müharibə, son dərəcə uğursuz xarici siyasətin üzünü xilas etmək üçün çıxılmaz, konspirativ və biabırçı cəhd, böyük bir aldatma deyildisə, nə idi?"***

Ermənistanın ”Hraparak” qəzeti diqqət çəkən məqama toxunub. Nəşrin yazdığına görə, Ermənistan və Azərbaycan XİN rəhbərləri Ararat Mirzoyan və Ceyhun Bayramov artıq ATƏT-in Minsk qrupunun həmsədrləri olmadan görüşürlər və maneə aradan qaldırılıb.

Lakin adıçəkilən erməni nəşri onu da yazır ki, bu reallıq Bakının Ermənistana barmaq silkələməsinə, daha dəqiq desək, legitimliyə əsaslanan yeni müharibə hədəsinə, hətta Zəngəzuru azad etməsinə mane olmur, eləcə də bir sıra məqamlarda geniş şərait yaradır.

### Erməni nəşri: ”Erməni diplomatiyası uğur qazansaydı, bəlkə də müharibə başlamazdı”

Lakin həqiqət budur ki, ”Hraparak” daha bir reallığı da yazıb və qeyd edib ki, məğlub olan diplomatiya ilə heç bir müharibəni dayandırmaq və ya əngəlləmək olmaz. SİTAT: ”44 günlük müharibə də uğursuz xarici siyasətin nəticəsi idi. Paşinyan özü dolayı yolla etiraf etdi ki, erməni diplomatiyası uğur qazansaydı, bəlkə də müharibə başlamazdı. Bəs 44 günlük müharibə, son dərəcə uğursuz xarici siyasətin üzünü xilas etmək üçün çıxılmaz, konspirativ və biabırçı cəhd, böyük bir aldatma deyildisə, nə idi?”.

Nəşr yazır ki, erməni döyüşçü-



lərin və hərbçilərin əsas çoxluğunun fikrincə, bu, daha çox planlı qırğın kimi qeyri-adi bir müharibə idi. Qəzetin qeyd etdiyinə görə, az adam xatırlayır ki, müharibənin 44 günü ərzində fəth olunmamış, yəni azad edilməmiş Kəlbəcər və Ağdam bircə qələm zərbəsi ilə rəqibə, yəni Azərbaycana bir güllə atılmadan təhvil verilib.

### Müharibədə ölmüş erməni hərbçisinin anası: ”Oğlum ölmüşdü, Müdafiə Nazirliyindən isə deyirdilər ki, xəstəxanada müalicə olunur”

Bu arada, müharibə zamanı erməni hərbçilərinin güclü və müasir Azərbaycan Ordusu qarşısında kütləvi məhv olmaları faktı ilə yanaşı, o günə qədər indentifikasiya olunmamış qalıqların morqlarda çürüməsi faktı da erməni cəmiyyətinin gündəmində qalmaqda davam edir. O cümlədən, müdafiə nazirliyinin müharibə vaxtı ölmüş erməni hərbçilərinin meyitlərinin ailələrinə təhvil verilməmələri haqqında da erməni mediası yazır. ”2020-ci ilin oktyabrında oğlumu açıq yara ilə döyüş meydanına aparıblar”. Bunu isə 44 günlük müharibədə məhv edilmiş erməni hərbi qulluqçu Henrik Eloyanın anası Hasmik Vardanyan deyib. Belə ki, Henrik müddətli erməni hərbi qulluqçu olub. Müharibə başlayanda işğalçı ordunun tərkibində Cəbrayılda qulluq edib. Anasının sözlərinə görə, oğlu oktyabrın 7-də xəsarət alıb, əvvəlcə Qarabağa, sonra müvəqqəti olaraq Xınzirəkdə açılmış xəstəxanaya, daha sonra isə Qarakilsə xəstəxanasına köçürülüb. Vardanyan qeyd edib ki, oğlunun onurğa sütununun 8-ci fəqərəsinin yanında qəlpə yarası olub, qəlpələrdən biri hələ də bədəndə olduğu üçün əməliyyat lazım olub.

”Əməliyyatdan əvvəl oğlum 7 günlük analıq baxımına göndərilib. Oktyabrın 24-də oğlumun məzuniyyəti başa çatıb, o, yenidən Qarakilsəyə qayıdıb ki, əməliyyat üçün İrəvana getməklə bağlı sənədləri hazırlasınlar. Oğlum oktyabrın 27-də Şuşaya, oktyabrın 28-də isə Qırmızı Bazara aparılıb və günorta vaxtı orada ölüb. Mövqelərə silah qaldıran ”Kamaz”ın yanında dayanıb, PUA ”Kamaz”a zərbə endirib, yerindəcə ölüb. Oğlum ölmüşdü, Müdafiə Nazirliyindən isə deyirdilər ki, xəstəxanada müalicə olunur”, - deyə o bildirib.

***Rövşən RƏSULOV***

# İndi çıxılmaz vəziyyətdə qalan Nikol neyləməlidir?



***...Deyilənlərə görə, Ermənistanı hələ də ittifaq dövləti hesab edən Rusiya Amerika agentlərinin Ermənistandan çıxarılması zərurətini gündəmə gətirib. Qeyd edilməlidir ki, bu məsələdə daha çox İran maraqlıdır və ümumi götürdükdə bu işlər elə məhz onun vasitəsilə həyata keçirilir. Qeyd edim ki, bu fikirlərə bənzər fikirləri erməni politoloq Andrias Qukasyan da bəyan edir.***

...Yəqin, bir müddət bundan əvvəl ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Vilyam Börns Ermənistanın paytaxtı İrəvanda səfərini xatırlamış olarsınız.

Deyim ki, rəsmi qonağın Ermənistana səfərini yerli erməni mətbuatı daha çox ABŞ-ın Ermənistana verdiyi ”dəyər kimi” qələmə verirlər.

Bununla yanaşı, rəsmi qonağın İrəvanda yüksək səviyyəli görüşlər keçirəcəyi deyilsə də, amma Börnsün səfəri ilə bağlı ABŞ-ın Ermənistandakı səfirliyi belə sonradan da heç bir açıqlama-filan vermədi.

Amma səfərlə bağlı müxtəlif ehtimallar da mövcud idi. İndi həmin mövcud ehtimallardan biri ni də erməni politoloq Andrias Qukasyan yayımlayıb. Məsələn onun ehtimalına görə, Mərkəzi Kəşfiyyat İdarəsinin direktorunun İrəvana səfərində məqsəd baş nazir Paşinyana Gürcüstana qarşı işləyən Rusiya kəşfiyyatını Ermənistandan çıxarmağı təklifi olub. Əslinə, bu ehtimal həqiqətə bənzəyə bilər.

...Və təbii ki, olanlara bağlı Rusiya passivlik nümayiş etdirə bilməzdi deyə, Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru İrəvandan gedəndən bir müddət sonra, bu dəfə İrəvana Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin varid oldu. İstisna deyil ki, onun İrəvana gəlişi də kəşfiyyatla bağlı öz problemlərini həll etmək idi.

Belə olan halda isə ən maraqlısı Paşinyanla bağlı ola biləcək yaçantılardır. Deyim ki, onun indiki şəraitdə bütün xarici agentləri istisnasız olaraq Ermənistandan çıxarmağa cəhd edəcəyi elə də inandırıcı görünmür.

Yaxşı, belə olan halda Nikol yazıq neyləməlidir? Deyək ki, burada hələlik İranı nəzərə almırıq,.. amma rusları və ya amerikalıları geri çəkə bilməzsə, bu Paşinyan hökuməti üçün çox təhlükəli vəziyyət yarada bilər.

Yenə də erməni politoloqun dediklərinə diqqət çəkək. Məsələn Qukasyan ABŞ-ın uzunmüddətli neytrallığını və Ermənistanda hakimiyyətin formalaşmasına qarışmamasını xatırladır. Politoloq Vaşinqtonun belə loyallığını bütün bu illər ərzində ABŞ üçün Ermənistanın İrana qarşı bir növ kəşfiyyat bazası olması ilə izah edir. (..maraqlıdır, görən İran, doğrudanmı, bütün bunları görübqanmır?-A.B.).

...Və əgər ABŞ üçün Ermənistanda yaradılan bu imkanların itirilməsi və ya hətta məhdudlaşdırılması Amerikanın Ermənistan hakimiyyətinə münasibətdə neytrallığın aradan qaldırılmasına səbəb ola bilər. İstisna deyi ki, bu da Paşinyan üçün ağır nəticələrə gətirib çıxara bilər.

...Hə, indi çıxılmaz vəziyyətdə qalan Nikol neyləməlidir?

***Ağasəf Babayev***

# Elmimiz xəstədirsə,...



**Elçin Bayramlı**

***Heç vaxt kütləvi şoulara qoşulmuram, fikir bildirmirəm, amma bu dəfə mövzu ən vacib sahədir- elmdir. Ona görə də, bir kaç kəlmə söz ifadəsinə əşhədü ehtiyacım var. AzTvnin Elmlər Akademiyasından hazırladığı biabırçı reportaj ifşa edildikdən sonra belə bəziləri yazır ki, Elmlər Akademiyası ləğv edilməlidir, çünki işləyə bilmir, fayda vermir. A kişi, ay arvad, bu xəstə təfəkkürlə 90-ların əvvəlində bütün iqtisadi, elmi, texniki bazamızı məhv etdiniz, xalqı, ölkəni kor qoydunuz də. "Sovetin qalığıdır" deyib zavodları, fabrikləri, müəssisələri, elmi mərkəzləri, kitabxanaları... məhv etdiniz. İndi nə istəyirsiniz?***

Bir şeydə problem varsa, həll edilməlidir, düzəldilməlidir, dağıdılmalı deyil! Bu ona bənzəyir ki, evində təmir işi varsa, təmir etmək əvəzinə evi dağıdırsan. Y da adam xəstədirsə, müalicə etmək əvəzinə zəhər verib öldürürsən. Bu xəstə düşüncə ilə hara kimi getmək fikrindəsiniz ki? Sizin dərdiniz nədir? Nəhəng elmi potensialımızdan, elmi infrastruktumuzdan kiçik bir qırıntı qalıb, istəyirsiniz onu da məhv edək Əfqanıstana çevrilək?

Ölkənin, xalqın ən böyük sərvəti Elmlər Akademiyasıdır. Bəli, bu sahədə problemlər var, çatızmazlıqlar var. Lakin bunun yolu məhv etmək, dağıtmaq, uçurtmaq deyil, düzəltməkdir. Bu sahədə ciddi işlər görülməlidir, böyük dəstək verilməlidir, elmi laboratoriyalar, tədqiqat mərkəzləri yaradılmalıdır, lazimi texnologiya ilə təchiz edilməlidir. Alimlərin maaşı artırılmalıdır, onlara öz ixtiralarını sənayedə və sair sahələrdə tətbiq etmələri üçün şərait yaradılmalıdır. İxtiraçılara, gənc alimlərə şərait yaradılmalıdır. Söhbət texniki elmlərdən gedir, humanitar elmlər artıq bitib.

Son 30 ildə ölkədən 30 mindən artıq alim köçüb gedib. Elmitədqiqat institutlarının maddi-texniki bazası müasir tələblərə cavab vermir. Bu vəziyyətdə nə gözləyirdiniz ki? Elmə ayrılan vəsait çox azdır və xeyli artırılmalıdır. Şoulara, seriallara, futbola... ayrılan pulun 10 faizini elmə ayırsaydıq, indi də bu elmdən nəsə tələb edə bilərdik.

Bizdən hər sahədə dəfələrlə zəif Ermənistanda elmi nəşrlərin və elmi məqalələrin sayına görə bizdən 2 dəfə yüksək göstərici var. Belə çıxır ki, bizim xalq olaraq da elmə marağımız yoxdur, ya da burada perspektiv görmürük. Ali məktəblərin bitirənlərin neçəsi elmi yaradıcılıq sahəsinə gedir? Çox azı. Hamı çalışır ki, hazırda hansı sahədə qazanc çoxdursa ora yönəlsin.

Elmlər Akademiyasında başqa problemlər var. Burada gənc alimlərdən namizədlik və dokorluq dissertasiyası müdafiə etmək üçün yüksək səviyyədə ingilis dili tələbi absurddur. Ay qardaş, bura İngiltərədir? Yoxsa bu alim ingilis dili müəllimi olacaq? Alim 6 beynəlxalq dildən hər hansı birini bilsə kifayətdirməsələn, ingilis, rus, ispan, fransız, çin, ərəb dili də ola bilər. Bu dillərin hər birində ağlagəlməz həcmdə elmi baza var. Nə deyib ancaq ingilis dili tələb edirsiniz? Biz İngiltərənin müstəmləkəsiyik?

Xarici elmi jurnallarda 20 məqalə dərc etdirməsi tələbi absurddur. Məlum olduğu kimi əksər elmi jurnallar biznes proyektidirv ə məqalə dərcinə görə böyük məbləğdə pul tələb edirlər. Bu ”yetim” alim hardan almalıdır o pulları?

Dissertasiya müdafiə etmə prosesi illərlə uzadılır. Min dənə şərt qoyulur, bəziləri ümumiyyətlə absurddur. Belə çıxır ki, gənc alim milyoner olmalıdır ki, bütün bu işlərin və xərclərin öhdəsindən gələ bilsin. Və o müdafiə edib alim olanda artıq qocalmış olacaq, nə enerjisi, nə vaxtı, nə sağlamlığı qalacaq ki, elmə töhfə versin.

Bu qədər, vaxt, əziyyət, xərc çəkən alim nə qazanacaq? Gəlin görək, özəl şirkətlər alimləri, mütəxəssisləri işə götürürlərmi? Xeyr. Ona görə çoxu ölkədən gedir. Axı belə şəraitdə elmdən, alimdən nəsə gözləmək absurddur. Elmi İnstituta işləyib 300-500 manat maaş alan alimdən, elmi işçidən nə gözləmək olar? O məcburdur ki, xaltura etsin, kənardan beş-on manat qazansın ki, ailəsi acından ölməsin. Demək, problem alimlərdə deyil, bizdədir. Ona görə də, problemin nəticələri ilə uğraşmaqdansa, səbəbini tapıb həll etmək lazımdır. Dağıtmaq yox!

***Xəbər verildiyi kimi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada 20 ölkədən jurnalistlərin qatıldığı birinci Beynəlxalq Media Forumu keçirilib. Rusiyanı TASS informasiya agentliyinin baş direktorunun 1-ci müavini Mixail Qusman təmsil edib. "Moskva-Bakı" portalına müsahibəsində o, forumun əsas mövzusu, Şuşanın bu gün necə yenidən qurulduğu və niyə Azərbaycanın getdikcə daha çox mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsindən danışıb. Qusmanın müsahibəsini oxucularımızın diqqətinə çatdırırıq.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Mixail Qusman: "Azərbaycan fəal beynəlxalq əməkdaşlıq siyasəti yürüdən ölkələrdəndir"

## *"Şuşa getdikcə öz tarixi əhəmiyyətinə qayıdır- Azərbaycanın mədəniyyət paytaxtına çevrilir"*

***- Forumun əsas mövzusu hansı mövzuya çevrilib?***

- Şuşada keçirilən 1-ci Beynəlxalq Media Forumu beynəlxalq media məkanında kifayət qədər əlamətdar hadisəyə çevrildi. O, təkcə Azərbaycanın bütün aparıcı KİV nümayəndələrini və rəhbərlərini bir araya toplayıb. Foruma dünyanın 20 ölkəsindən müxtəlif KİV rəhbərləri gəlib, müzakirələrdə fəal iştirak ediblər. Forumun iş hissəsi bir gündən ibarət olsa da, bu gün son dərəcə hadisələrlə yadda qaldı. Rəsmi hissəyə əlavə olaraq, dörd çox maraqlı panel müzakirəsi aparılıb. Ümumiləşdirsək, deyə bilərik ki, forum bu gün qlobal jurnalist ictimaiyyətini narahat edən mövzular üzrə güclü, maraqlı və yüksək peşəkarlıqlı söhbətə çevrilib. Biz hamımız tektonik sürüşmələrlə sarsılan mürəkkəb bir dünyada yaşayırıq. İnformasiya cəmiyyəti müxtəlif çətinliklərlə üzləşir. Bunlar texnoloji çağırışlar, kiber müharibələr və saxta hücumlardır. Bütün bunlar təkcə Rusiya və Azərbaycan mediasını narahat edən məsələ deyil. Bu, bütün dünya jurnalistlərini narahat edən məsələdir. Bu çətinliklərə necə qarşı çıxmalı? Bu dövrdə ən düzgün həll yollarını necə tapmaq olar? Forumun əsas müzakirəsi bu idi.

***- Forumun platforması kimi Azərbaycan niyə seçildi?***

- Forum Azərbaycan tərəfinin təşəbbüsü ilə keçirilib. Məncə, bu, çox yaxşı təşəbbüsdür. Amma deməliyəm ki, Azərbaycanın media nümayəndələrinin iştirakı ilə bağlı beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübəsi var. Azərbaycan 4-cü Dünya Xəbər Agentlikləri Konqresinin təşkilatçısı olub. O, dünyanın müxtəlif ölkələrindən çoxsaylı nümayəndə heyətlərini qəbul edib. Ona görə də bir çox dünya mediasının rəhbərləri azərbaycanlı həmkarlarının dəvətlərinə həvəslə və səmimiyyətlə açıqdırlar.

***- Bu il Şuşaya ilk dəfə deyil ki, səfər edirsiniz. Şəhər sürətlə dəyişir mi?***

- İndi Şuşaya baxırıqsa və biz orada tam bir gün keçirmişiksə, deməli görmüşük ki, şəhər böyük tikinti meydançasına bənzəyir. Qeyd etdiyim kimi, yeni obyektlərin tikintisi, köhnələrinin yenidən qurulması bir dəqiqə belə dayanmır. Hətta gecə biz Şuşadan çıxanda şəhər yenidən qurulur, inşaatçılar işləyirdi. Şuşa getdikcə öz tarixi əhəmiyyətinə qayıdır- Azərbaycanın mədəniyyət paytaxtına çevrilir. Şəhər gözümüzün qabağında dəyişir.





***- Sizcə, Azərbaycanın dünyada rolu necə dəyişir?***

- Azərbaycan uzun müddətdir ki, çox fəal beynəlxalq əməkdaşlıq siyasəti yürüdən ölkələrdən biridir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sayəsində bu gün Qoşulmama Hərəkatının aparıcı beynəlxalq qurumlarından biri olan sədridir. Təqvimə baxsanız, bu gün elə həftə tapmaq çətindir ki, Azərbaycanda bu və ya digər fərqli istiqamətdə beynəlxalq tədbir keçirilməsin. Ona görə də biz jurnalistlər üçün 1-ci Beynəlxalq Media Forumunun keçirilməsi ideyasını çox cəlbedici gördük. Bu barədə təkcə Rusiyanın nümayəndələri danışmayıb. Forumda iştirak edən İspaniya və Bolqarıstan, Qazaxıstan və Pakistan və bir çox başqa ölkələrin nümayəndələri də bu barədə danışıblar.

***- Moskvada belə tədbirlər keçirməyi planlaşdırırsınız?***

- Əlbəttə! Rusiya kifayət qədər beynəlxalq media tədbirlərinə ev sahibliyi edir. Məsələn, mənim doğma TASS agentliyimin təşəbbüsü ilə ilk Ümumdünya İnformasiya Agentlikləri Konqresi məhz Rusiyada keçirildi. Bu birinci konqresdən sonra bütün Dünya Konqreslərini aparan Dünya Xəbər Agentlikləri Şurası yaradıldı. Yeri gəlmişkən, gələn il Mərakeşdə keçiriləcək. Bu gün biz bütün beynəlxalq media və jurnalist strukturlarında fəal iştirak edirik: YUNESKO-dan Avropa Alyansına (EANA), Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatından (OANA) MDB İnformasiya Şurasına qədər. Biz bütün bu beynəlxalq strukturlarda iştirak edirik və fəal rol oynayırıq.

***Müsahibə - Tatyana Novikova***
***Tərcümə - Elçin Bayramlı***





# “Barselona” bu futbolçuya 25 milyon avro qiymət qoydu!




*“Barselona” klubunun rəhbərliyi Memfis Depayla bağlı qərarını verib. SİA Offsideplus.az -a istinadən xəbər verir ki, klub 28 yaşlı hücumçu ilə yollarını ayırmağa hazırdır. Kataloniya təmsilçisi artıq Depaya qiymət də qoyub. 25 milyon avro təklif edilsə, klub onu satacaq. Qeyd edək ki, Depay ”Barselona”da 2021-ci ildən oynayır.*

# Balqabaq tumu yüksək qan təzyiqini aşağı salır



***Balqabaq tumu maqnezium, kalium, arginin də daxil olmaqla qan təzyiqinə nəzarət üçün vacib olan konsentratlaşdırılmış qida maddələri mənbəyidir. Statistikaya görə, dünyada insanların təxminən üçdə biri yüksək qan təzyiqi ilə yaşayır və bir çoxları hipertonik olduqlarını bilmirlər. Hipertoniya sağlamlığa mənfi təsir edir və nəticədə böyrək xəstəliklərinə, infarkta və insulta yol açır.***

Yüksək qan təzyiqinin əsas səbəblərindən biri də gündəlik qidalanma rasionudur. Sağlam, təbii, az emal edilmiş və ya emal edilməmiş qidaların qəbulu qan təzyiqini stabil saxlamağa imkan verir. Tibb işçiləri qan təzyiqini aşağı salmağa kömək etməkdə güclü vasitə - balqabaq tumunu məsləhət görürlər. əldirlər.

SİA xəbər verir ki, ABŞ və İran universitetlərinin mütəxəssislər qrupunun araşdırmasının nəticəsi olaraq ”Comlementary Therapies in Clinical Practice” jurnalında bu barədə məlumat dərc edilib. Alimlərin qənaətinə görə, balqabaq tumunun yağı da çox faydalıdır. Tədqiqatçılar qeyd edirlər ki, balqabaq tumu qan təzyiqinə normada saxlayan maqnezium, kalium və arginin kimi qan damarlarını rahatlaşdıran və qan təzyiqini aşağı salan konsentratladırılmış qida maddələri mənbəyidir.

Balqabaq tumunun uzun müddət müntəzəm istifadəsi qan təzyiqi göstəricilərini yaxşılaşdırmaqla ürək-damar xəstəlikləri riskini azaltmağa kifayət qədər qadirdir. Balqabaq tumu həmçinin saçların uzanması, xolesterinin səviyyəsinin aşağı düşməsi, sidik yollarının gücləndirilməsi üçün də çox faydalıdır.

# DƏHŞƏT: Ana pəncərədən yıxılan övladının arxasınca özünü binadan atdı!



***Abşeronda ana və uşaq bədbəxt hadisə nəticəsində həlak olublar. Oxu.Az-ın məlumatına görə, hadisə Xırdalan şəhərində çoxmərtəbəli yaşayış binalarından birində baş verib.***

Belə ki, binanın beşinci mərtəbəsində yaşayan uşaq pəncərədən düşüb. Ana onu tutmaq üçün özünü atsa da, hər ikisi dünyasını dəyişib. Ailə bir neçə gün əvvəl həmin evə kirayə köçübmüş. Faktla bağlı araşdırma aparılır.

# Neft cüzi bahalaşıb



Amerika Neft İnstitutu (API) ABŞ-da neft ehtiyatlarının azalması haqqında məlumatları dərc etdikdən sonra dünya bazarlarında neft qiymətləri cüzi artıb. SİA birjalara istinadən xəbər verir ki, Şimal dənizində hasil olunan ”Brent” neftinin oktyabr fyuçersləri 0,07% bahalaşaraq, 1 bareli 99,53 ABŞ dollarına satılıb. WTI neftinin sentyabr fyuçerslərinin qiyməti 0,35% artıb və 1 bareli 95,31 ABŞ dolları təşkil edib.

API-nin məlumatına əsasən iyulun 22-dək olan həftə ərzində ABŞ-da ”qara qızıl” ehtiyatı 4 milyon barel azalıb. ABŞ-ın Energetika Nazirliyi ölkədə neftin kommersiya ehtiyatları ilə bağlı rəsmi statistikanı bu gün açıqlayacaq. Analitiklər ehtiyatların 1 milyon barel azalacağını güman edirlər.

## ELAN

Bakı şəhəri, Abşeron rayonu Masazır qəsəbəsində yerləşən Qurtuluş 93 yaşayış massivi, Bağçalı Evlər MTK tərəfindən Qədirov Rauf Cəbrayıl oğlunun adına verilmiş 80/16 saylı maliyyə arayışı və müqavilə itdiyi üçün etibarsız sayılır.

# Çoban ov tüfəngi ilə 3 nəfəri öldürüb



Türkiyədə 3 nəfər ov tüfəngi ilə öldürülüb. APA xəbər verir ki, hadisə Sivas şəhərinin Yıldızeli rayonunda baş verib. Çoban, heyvanları oğurlamağa gəldiyini zənn edən 3 nəfərə ov tüfəngi ilə atəş açıb. Həmin şəxslər hadisə yerində ölüb. Şübhəli jandarma tərəfindən nəzarətə götürülüb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**

**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**